3 may 2019 №33 (1618) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

# Ayrı-seçkiliyə, qeyri-bərabərliyə və zorakı münaqişəyə qarşı birgə fəaliyyət

## “Dünyada multikulturalizmin tendensiya halını alması beynəlxalq sülhə, tərəfdaşlığa vacib töhfə olardı”

Mayın 2-də Bakıda “Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq” şüarı altında V Dünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak ediblər.

Forum Azərbaycan Hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və İSESCO-nun tərəfdaşlığı ilə keçirilir. Tədbirdə 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın rəsmiləri iştirak edirlər.

Dövlət başçısı V Dünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində nitq söyləyib.

Prezident İlham Əliyev Azərbaycanda əsrlər boyunca müxtəlif dinlərin, etnik qrupların birgə yaşadığını, ölkəmizdə daim dini tolerantlığın hökm sürdüyünü vurğulayaraq multikulturalizmin bu gün dövlət siyasətinin mühüm tərkib hissəsi olduğunu qeyd edib: “Bizim tariximiz mədəni müxtəliflik tarixidir və bu gün həmin tarixi irs əsasında Azərbaycan dünyaya mədəniyyətlərarası dialoqun ölkələri yaxınlaşdırmağın, müxtəlif mədəniyyət və sivilizasiya nümayəndələri arasında yeni körpülərin qurulmasının yeganə yol olduğunu nümayiş etdirir”.

2016-cı il Azərbaycanda multikulturalizm, 2017-ci ilin isə İslam həmrəyliyi ili elan edildiyini diqqətə çatdıran dövlət başçısı vurğulayıb ki, dünyada multikulturalizmin tendensiya halını alması beynəlxalq səviyyədə sülhə, tərəfdaşlığa vacib töhfə olardı. Bu baxımdan, multikulturalizm və bu yöndə Azərbaycanda keçirilən digər silsilə beynəlxalq tədbirlər mühüm əhəmiyyət kəsb edir. Bakıda keçirilən növbəti Forum çərçivəsində aparılacaq müzakirələr, fikir mübadiləsi ümumi məqsədlərə xidmət edəcək.

Prezident deyib: “8 il əvvəl ilk Forum təşkil ediləndə biz onun bu qədər geniş beynəlxalq dəstək qazanacağını təsəvvür edə bilməzdik. 2011-ci ildə bizim mədəniyyətlərarası dialoqa həsr edilmiş dünya forumunun təşkil edilməsi təşəbbüsümüz tariximiz, coğrafiyamız və düşüncəmizdən qaynaqlanırdı ki, dünyanı təhlükəsiz etmək üçün biz sivilizasiyalar, mədəniyyətlər və müxtəlif etnik qrup və dinlərin nümayəndələri arasında dialoqun təşviqi sahəsində çox fəal olmalıyıq. Foruma göstərilən geniş beynəlxalq dəstək bizi ruhlandırır. Bu gün Forumun həmtəşkilatçıları arasında dünyanın aparıcı beynəlxalq təşkilatları var və bizim birgə səylərimiz mədəniyyətlərarası dialoqun təşviqi işinə töhfə verir”.

*davamı səh. 2-də*




## BMT Bakı Forumu haqqında

Birləşmiş Millətlər Təşkilatının (BMT) rəsmi saytında mayın 2-də Bakıda işə başlayan V Dünya Mədəniyyətlərarası Dialoq Forumuna həsr edilmiş məqalə dərc olunub.



Məqalədə BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinosun sözlərindən sitat gətirilir. Bakıya Şri-Lankadan gələn M.Moratinos Bakı Forumunun vaxtında, məqamında keçirildiyini hesab edir.

Şri-Lankanın bir neçə kilsə və hotelində eyni vaxtda baş verən terror aktı nəticəsində həlak olanların xatirəsini anmaq məqsədilə Kolomboya gedən Moratinos deyib: “Şri-Lanka daim insanlara açıq ölkə olub, burada müxtəlif dinlər və mədəniyyətlər mövcud olub və qəflətən orada belə faciə baş verib. Bu faciə sülh şəraitində yaşamağa can atan ölkə üçün böyük zərbə idi”.

*davamı səh. 3-də*

## Mədəniyyətlərarası dialoq müasir dövrün zəruri çağırışıdır

V Dünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 2-də Nazirlərin yüksək səviyyəli görüşü keçirilib. “Dəqiq transformativ fəaliyyət üçün mədəniyyətlərarası dialoqun səfərbər olunması” mövzusuna həsr edilən görüşdə dünyada baş verən qarşıdurmalar, zorakılığın aradan qaldırılması, əməkdaşlığın qurulması və digər mühüm mövzularda çıxışlar dinlənilib.

Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayevin sədrliyi ilə keçirilən tədbirdə Forumun tarixi əhəmiyyətindən söz açılıb.

Əbülfəs Qarayev çıxış edərək bildirib ki, Bakı Forumu beynəlxalq mədəniyyətlərarası dialoqa bir proses kimi baxır. Dünya Mədəniyyətlərarası Dialoq Forumu BMT-nin illik hesabatında əsas platforma kimi qeyd olunub. Ötən müddət ərzində Forumun mövzusu xeyli dəyişib və budəfəki tədbirin mövzusu mövcud dünyanı narahat edən məsələləri əhatə edir: “Biz təkcə Azərbaycanda deyil, ölkəmizdən kənarda da dialoqların qurulmasına çalışırıq. İnanırıq ki, mədəniyyətlərarası dialoqa öz töhfəmizi verə bilirik. Keçirdiyimiz görüşlər təcrübə mübadiləsi və yeni təşəbbüslər üçün münbit zəmindir”.



Mədəniyyətlərarası dialoqun müasir dövrün zəruri çağırışı olduğunu vurğulayan nazir Forumun sülhə əsaslanan dünyanın qurulması məqsədi güddüyünü bildirib. Foruma dəstək verən bütün təşkilatlara minnətdarlığını bildirən Əbülfəs Qarayev hər kəsi müzakirələrdə iştiraka dəvət edib.

BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinos təmsil etdiyi qurum barədə məlumat verib. Bildirib ki, mədəniyyət hər bir millətin tarixidir. Bu və ya digər cəmiyyətin quruluşunu öyrənmək üçün onun mədəni irsinin elementlərinə diqqət yetirmək lazımdır. Foruma töhfə vermək üçün birgə əməkdaşlığın önəmini vurğulayan Ali nümayəndə burada müzakirə olunan məsələlərin müasir dünyanın qorunması baxımından önəm daşıdığını deyib.

Forumun Şərqlə Qərb arasında yeni körpülər yaratdığını söyləyən Avropa Şurası Baş katibinin müavini Qabriella Battaini-Draqoni Azərbaycanın mədəniyyətlərarası dialoqda aparıcı dövlətlərdən biri olduğunu bildirib. O, dünyanın 130-dan çox ölkəsində icra etdikləri “Mədəniyyətlərarası şəhərlər şəbəkəsi” layihəsindən söz açıb.

İSESCO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri belə bir mötəbər tədbirə dəstək verdiyinə görə Azərbaycan Hökumətinə minnətdarlığını bildirib. Diqqətə çatdırıb ki, artıq beşinci dəfə keçirilən bu Forumun coğrafiyası çox genişlənib: “Biz uzun illər əl-ələ verərək Forumu dünyanın ən vacib tədbirlərindən birinə çevirdik və siyasi liderləri bu aktual mövzu ətrafında toplaya bildik. Dünyadakı bir çox problemlərin həlli yolları var və bu məsələləri humanitar, sülhsevər qüvvələr bir yerdə müzakirə etməlidir. Müharibə, zorakılıq münaqişələrin həll yolu deyil. Biz sülhməramlı missiyalardan istifadə etməliyik. Yalnız bu yolla münaqişələrin qarşısını ala bilərik”.

*davamı səh. 3-də*



## “İpək Yolu gənclərin gözü ilə”

Mayın 2-də Bakı Konqres Mərkəzində V Dünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində “İpək Yolu gənclərin gözü ilə” adlı sərginin açılışı keçirildi.

Sərgidə UNESCO-nun təşkilatçılığı ilə gerçəkləşən müsabiqəyə təqdim edilmiş fotolar nümayiş olunur.

Mərasimdə çıxış edən UNESCO-nun Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Nada Al-Naşif Azərbaycanın tarixi İpək Yolunun ürəyi olduğunu və sərginin Bakıda keçirilməsindən məmnunluğunu ifadə etdi.

*davamı səh. 2-də*

## 18 teatr üçün 8 gün

Xəbər verdiyimiz kimi, aprelin 22-dən 29-dək Dağıstan Respublikasında Xəzəryanı ölkələrin milli teatrlarının festivalı keçirilib.

Səkkiz gün ərzində Qazaxıstan, Azərbaycan, həmçinin Rusiya Federasiyasının subyektləri – Şimali Osetiya, Tatarıstan, Kabardin-Balkar, Qaraçay-Çərkəz, İnquşetiya, Kalmıkiya, Çeçenistan və Dağıstanı təmsil edən 18 kollektiv respublikanın müxtəlif səhnələrində çıxış edib.

Ölkəmiz festivalda Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının quruluşunda Cəlil Məmmədquluzadənin “Ölülər” pyesi əsasında hazırlanmış eyniadlı tamaşa ilə təmsil olunub.

Aprelin 29-da Mahaçqalada – Dağıstan Rus Dram Teatrında beynəlxalq festivalın təntənəli bağlanış və qaliblərin mükafatlandırılması mərasimi keçirilib. Münsiflər heyətinin sədri, Rusiya Kulturologiya İnstitutunun böyük elmi işçisi Yelena Pokorskaya çıxış edərək bildirib ki, hər bir münsif bütün kollektivlərin çıxışlarını obyektiv qiymətləndirməyə çalışıb. “Son nəticədə festival qardaşlıq və yaradıcı görüşlər bayramıdır”, - deyə o əlavə edib.

*davamı səh. 5-də*

## Tolerantlıq festivalının ilk sərgisi təqdim olunub

Mayın 1-də Bakıdakı İbrahim Əbilov adına Mədəniyyət Mərkəzində 3-cü İMAGİNE Avropa Tolerantlıq Festivalı çərçivəsində fransız fotoqraf Nikolas Landemardın fotosərgisi açılıb.

N.Landemard sərgi barədə məlumat verib. Qeyd edib ki, üç hissədən ibarət olan sərginin birinci hissəsi “Fransa teatrında qaçqınların çıxışı” adlanır. Bu layihə Fransanın Lion şəhərindən başlayır. Fotoqraf teatrda çəkilişlər apararkən həm də ustad dərsləri verib. Bu teatrın özəlliyi ondan ibarətdir ki, burada səs yoxdur. Teatrda miqrantlar və qaçqınlar çıxış edirlər. Onlar fransız dilini bilmədikləri üçün ünsiyyətlərini him-cimlə qururlar.

*davamı səh. 4-də*

Dirijor soydaşımızın Meksikada böyük uğuru



*səh. 6*

“Kitabı tanıdın, kitabla tanının!” devizi altında keçirilən IV Buktreyler Festivalının qalibləri mükafatlandırıldı

*səh. 4*




“Culture Guide” mədəniyyət bələdçisinin növbəti sayı çapdan çıxıb

*səh. 7*

# Ayrı-seçkiliyə, qeyri-bərabərliyə və zorakı münaqişəyə qarşı birgə fəaliyyət

*əvvəli səh. 1-də*

"Bakı Prosesi"nin BMT və digər mötəbər təşkilatlar tərəfindən dəstəkləndiyini deyən Prezident İlham Əliyev burada qəbul edilən qərarların əhəmiyyətdən danışıb: "Bu gün "Bakı Prosesi" BMT və digər beynəlxalq təşkilatlar tərəfindən dəstəklənir. Əminəm ki, "Bakı Prosesi"nin böyük gələcəyi var. Bu qəbildən olan forumlar mədəniyyətlərarası dialoq mövzusuna diqqəti cəlb edir, yeni ideyalar və yanaşmalar ortaya qoyulur. Müxtəlif ölkələrdə və beynəlxalq təşkilatlarda mühüm qərar qəbul edənlər üçün bu, düzgün qərarların verilməsi məqsədilə yaxşı və müsbət platformadır. Bu baxımdan Azərbaycan həm daxildə, həm də xaricdə qarşılıqlı anlaşma və əməkdaşlığa söykənən siyasət yürüdür. Biz körpülər qururuq. Biz Avropa ilə Asiya arasında yerləşirik. Əlbəttə, bizim coğrafiyamız tariximizə təsir edib və bugünkü inkişafımıza da təsir etməkdədir".

Avropa ilə Asiyanın kəsişməsində yerləşən Azərbaycanın müstəqillik baxımından gənc olmasına baxmayaraq, sürətlə inkişaf etdiyini deyən Prezident İlham Əliyev dövlət siyasətinin dünya ölkələri ilə əməkdaşlığın və tərəfdaşlığın genişləndirilməsinə yönəldiyini bildirib.

Ölkəmizin həyata keçirdiyi nəhəng layihələrə toxunan ölkə başçısı boru kəmərləri vasitəsilə Xəzər dənizinin Qara dəniz və Aralıq dənizi ilə birləşdiyini, Avropanın enerji təhlükəsizliyinə xidmət edən bu kəmərlərin, həmçinin Azərbaycanın təşəbbüsü ilə yaradılan beynəlxalq nəqliyyat dəhlizlərinin həm də ölkələr və xalqlar arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət etdiyini deyib. Prezident İlham Əliyev nitqində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə də danışıb və bu münaqişənin yaratdığı problemlərə baxmayaraq, Azərbaycanın sürətlə inkişaf etdiyini söyləyib. Dövlət başçısı Forumun işinə uğurlar arzulayıb və müzakirələrin səmərəli olacağına əminliyini ifadə edib.





* * *

Sonra qədim sivilizasiyalara və müasir Azərbaycandakı tolerantlıq mühitinə həsr edilmiş videoçarx nümayiş olunub.

Tədbirin moderatoru Forumun yüksək səviyyədə təşkilinə və dərin məzmunlu çıxışına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Qeyd edib ki, "Bakı Prosesi" sülhsevər qüvvələri gücləndirməklə münaqişələri aradan qaldırmağa kömək edən prosesdir.

* * *

Forumda çıxış edən BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinos ilk dəfə möhtəşəm Bakı şəhərində olmasından son dərəcə məmnunluğunu ifadə edib. Bildirib ki, BMT-nin Sivilizasiyalararası Alyansı Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılmış "Bakı Prosesi"nin tərəfdaşıdır. "Birlik "Bakı Prosesi"nin ruhudur", - deyən Migel Moratinos əlavə edib ki, Azərbaycan paytaxtı mədəniyyətlərarası dialoq xətlərinin, BMT-nin Sivilizasiyalar Alyansının mühüm qovşağına çevrilə bilər. O, dünyada baş verən hadisələr fonunda bu mötəbər beynəlxalq tədbirin vaxtında keçirildiyini vurğulayıb və Forumda müzakirə olunacaq məsələlərin əsas istiqamətlərindən danışıb.

UNESCO-nun Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Nada Al-Naşif dünyada multikulturalizmin təbliğində və bəşəri dəyərlərin bərqərar olmasında Prezident İlham Əliyevin və ölkəmizin rolunu xüsusi vurğulayıb. Bildirib ki, bəşəriyyətin başlıca hədəfləri müsbət dəyişikliklər, insan hüquqları, dayanıqlı inkişaf və müxtəlifliyin təmin edilməsi olmalıdır. Nada Al-Naşif bu istiqamətdə UNESCO xətti ilə də silsilə tədbirlərin həyata keçirildiyini deyib, beynəlxalq qurumun mədəniyyətlərarası dialoqun daha səmərəli olmasına töhfələrini əsirgəmədiyini diqqətə çatdırıb.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymin Bakı Forumunun yüksək səviyyədə təşkilinə və bu mühüm tədbirə dəvətə görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirib, tədbirin Qərblə İslam dünyası arasında mədəniyyətlərarası dialoqa mühüm töhfə olduğunu vurğulayıb. Baş katib mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun çox zəruri olduğunu və bütün ölkələrin bu istiqamətdə səylərini birləşdirmələrinin vacibliyini deyib. O, Prezident İlham Əliyevin mədəniyyətlərarası dialoqun gücləndirilməsi işinə daim sadiqlik nümayiş etdirdiyini vurğulayıb və Foruma uğurlar arzulayıb.

Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoni Azərbaycanın mədəniyyətlərarası dialoqda aparıcı dövlətlərdən biri olduğunu bildirib. O, "Bakı Prosesi"nin uğur tarixçəsinə çevrildiyini xüsusi vurğulayaraq Avropa Şurasının dünyada mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun gücləndirilməsi, gənclərin maarifləndirilməsi və digər istiqamətlərdə kompleks iş apardığını deyib, bu baxımdan Bakı Forumunun xüsusi əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

İSESCO-nun Baş direktoru Əbdüləziz Osman əl-Tüveycri Bakı Forumunun dünyanın ən nüfuzlu tədbirlərindən biri olduğunu deyib. O, indiki dövrdə dünya liderlərinin siyasi iradə göstərməsinin vacibliyini diqqətə çatdıraraq bu baxımdan Prezident İlham Əliyevin nümunəvi mövqe nümayiş etdirdiyini vurğulayıb. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq birliyin ədalətsiz mövqe tutduğunu, bunun yolverilməz olduğunu deyən Əbdüləziz Osman əl-Tüveycri dünyanı Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasına dəstək verməyə çağırıb.

* * *

Açılış mərasimində mədəniyyətlərarası dialoqu tərənnüm edən, ayrı-seçkiliyə, qeyri-bərabərliyə və zorakı münaqişəyə yox deyən kompozisiya təqdim olunub.

## Prezident Forumun yüksək səviyyəli qonaqları ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinosu qəbul edib.

Prezident Migel Anxel Moratinosa V Dünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakına və ölkəmiz haqqında söylədiyi xoş sözlərə görə təşəkkürünü bildirib. Dövlət başçısı Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansı ilə yaxından əməkdaşlıq etdiyini vurğulayıb.

Forumun təşkilinə görə minnətdarlığını bildirən Migel Anxel Moratinos Bakının dünyada dialoq mərkəzi kimi tanındığını, "Bakı Prosesi"nin önəmli bir platformaya çevrildiyini və zamanında irəli sürülmüş təşəbbüs olduğunu vurğulayıb. Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansına verdiyi dəstək yüksək qiymətləndirilib.

* * *

Prezident İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymi ilə görüşündə də V Dünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyəti qeyd edilib. Baş katib Azərbaycanın nəqliyyat qovşağı olmaqla yanaşı, dialoq və əməkdaşlığın da qovşağına çevrildiyini qeyd edərək ölkəmizi dinc birgə yaşayışın rəmzi kimi xarakterizə edib.

Dövlət başçısı "Bakı Prosesi"nin mühüm beynəlxalq platforma olduğunu, dünyada mədəniyyətlərarası əlaqələrin və dinlərarası əməkdaşlığın qurulmasında ən səmərəli mexanizmlərdən biri kimi tanındığını diqqətə çatdırıb.

Görüşdə İslam Əməkdaşlıq Təşkilatının gündəliyində duran məsələlərə dair fikir mübadiləsi aparılıb.

* * *

"Bakı Prosesi" başladığı dövrdən diplomatik münasibətlərdə yenilik, müdrik və cəsarətli addımdır. Bu fikri isə Azərbaycan Prezidenti ilə görüşdə Avropa Şurası Baş katibinin müavini Qabriella Battaini-Draqoni deyib. O bildirib ki, mədəniyyətlərarası dialoq insanların həyatını dəyişə biləcək vacib prosesdir. Avropa Şurası Baş katibinin müavini bu prosesin davamlı olması üçün verdiyi dəstəyə görə Prezident İlham Əliyevə təşəkkür edib.

Prezident İlham Əliyev Azərbaycanın həm Avropa Şurasına, həm də İslam Əməkdaşlıq Təşkilatına üzv olduğunu qeyd edərək ölkəmizin "Bakı Prosesi" vasitəsilə mədəniyyətlərarası və sivilizasiyalararası dialoqu təşviq etdiyini bildirib. "Bakı Prosesi"nin coğrafiyasının genişləndirilməsinin zəruriliyini qeyd edən dövlət başçısı Azərbaycanın sivilizasiyalararası dialoqu təşviq etməklə bərabər, sivilizasiyalardaxili dialoqu da dəstəklədiyini deyib.

## "İpək Yolu gənclərin gözü ilə"

*əvvəli səh. 1-də*

Azərbaycan Respublikasının UNESCO yanında Daimi nümayəndəsi Anar Kərimov çıxış edərək Forum çərçivəsində belə bir sərginin təşkil olunmasının əhəmiyyətini qeyd etdi. Vurğuladı ki, sərgidə İpək Yolu üzərində yerləşən ölkələr, orada yaşayan insanların həyat tərzi haqqında əyani təsəvvür yaranır.

Daha sonra çıxış edən müsabiqənin fəxri məsləhətçisi, dünya şöhrətli azərbaycanlı fotoqraf Rza Diqqəti İpək Yolu ölkələrindən olan gənc fotoqrafların çəkdikləri fotolar barədə danışdı. Bildirdi ki, geniş bir coğrafiyada yerləşən ərazidə xalqlar, ölkələr arasında mədəniyyət, ənənə fərqliliyi olsa da, bu sərgidə bütöv dünya sakinlərinin gözəlliyi əks olunub. Rza Diqqəti hər kəsə sülh və savaşsız həyat arzuladı.

Daha sonra müxtəlif ölkələrdən gələn qonaqlar sərgilənən fotoşəkillərlə yaxından tanış oldular.

**FARİZ**

## Sülh mədəniyyətini necə aşılamalı?

V Dünya Mədəniyyətlərarası Dialoq Forumunun ilk günü "Müxtəlifliyin idarə olunması: çoxsəviyyəli və çoxtərəfli əməkdaşlıq" mövzusunda sessiya (təşkilatçı UNESCO), "Qlobal vətəndaşlıq təhsili. Sülh mədəniyyətinin aşılanması", "İslamofobiyanı dayandırın, dinlərarası maariflənmə ilə stereotipləri aradan qaldırın və kompleks müxtəliflikləri idarə edin" və s. mövzularda aralıq sessiyalar keçirildi.

BMT-nin Sivilizasiyalar Alyansının təşkil etdiyi "Qlobal vətəndaşlıq təhsili. Sülh mədəniyyətinin aşılanması" mövzulu sessiyada Avropa Şurasının Şimal-Cənub Mərkəzi Qlobal Təhsil Proqramının meneceri Migel Silva çıxış edərək fərqli mədəniyyətlərə malik insanlarla iş prosesində qazanılan təcrübə proqramından danışdı. Qeyd etdi ki, bu gün dünyada müxtəlif pedaqoji kollektivlərdə fərqli mədəniyyətləri təmsil edən insanlar çalışır. M.Silva təmsil etdiyi qurumda tarazlı şəkildə təşkil olunan treninqlərdən söz açaraq söylədi ki, bu treninqlərdə iştirakçılara həm təkbətək, həm də qrup halında öyrənmə prosesi aşılanır:



"Bizim düşüncəmiz və prioritetimiz mədəniyyətimizlə bağlıdır ki, bu da bizi fərqləndirir. Biz bu treninqlərlə çox səmərəli nəticələr əldə edirik. Bu kurslar qlobal vətəndaşlar şəbəkəsinin universitetlərində aparılır. Bu həm də gənclərin bir-biri ilə hər hansı təcrübəni bölüşmək baxımından əlverişlidir. Treninqlərimizlə yanaşı, kurslarımızda da müxtəlif mövzular tədris edilir. Qlobal vətəndaşlıq təhsili alan insanlara sülh mədəniyyətinin aşılanması vacib məsələlərdəndir. Bu hal onların sonrakı fəaliyyətlərində xüsusi önəm kəsb edir".

İsveçrənin Mədəniyyətlərarası Təhsil, Təlim və Tədqiqat Cəmiyyətinin (SIETAR) prezidenti xanım Ann-Klod Lambelet rəhbəri olduğu qurumun fəaliyyət istiqamətlərindən danışdı, onun dünyanın 30 ölkəsində nümayəndəliyinin olduğunu dedi. Vurğuladı ki, SIETAR öz sahəsində peşəkar olan insanlarla əməkdaşlıq etməyə üstünlük verir, bu əlaqələr sayəsində dünyada ən qabaqcıl texnologiya və yeniliklərdən zamanında xəbərdar ola bilir: "Biz konqreslərimiz və seminarlarımızda hər zaman təcrübə mübadilə edirik. Biz gənclərin fəaliyyətinə üstünlük veririk. Çalışırıq ki, yaşadığımız mühitə təsir göstərə bilək".

Sonra UNESCO-nun Nyu-Dehlidə yerləşən Sülh və Dayanıqlı İnkişaf üzrə Mahatma Qandi Təhsil İnstitutunun mütəxəssisi Kuani Simon, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Nicat Məmmədli, Pakistan Gənclər Alyansının "Peace Rickshaws" layihəsinin təsisçisi Syed Ali Abbas Zaidi və başqa nümayəndələrin mövzu ilə bağlı çıxışları dinlənildi, müzakirələr aparıldı.

## Gənclər arasında fərqliliklərdən anlaşmaya: yeni vasitə və metodlar

Forum çərçivəsində keçirilən sessiyalardan biri də "Yeni vasitələr və metodlar tətbiq etməklə gənclərin fərqlilikləri arasında körpünün qurulması: təcrübələrə əsaslanan hekayələr" mövzusuna həsr edilib.

Sessiyaya moderatorluq edən UNESCO-nun Mədəniyyətlərarası dialoq proqramı üzrə mütəxəssisi Coysi Monteyro qeyd edib ki, bu dialoq olduqca dünya gəncləri arasında fərqliliyi üzə çıxarır. Gənclər müxtəlif bacarıqları bir-birilərinə aşılayır. İnsanlar müxtəlif şəraitlərdə yaşamağı bacarmalıdır.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova bildirib ki, rəhbərlik etdiyi qurum gənclər arasında multikultural dəyərlərin təbliği işini həyata keçirir, Avropadakı donorlarla birlikdə layihələr həyata keçirir. Azərbaycandakı tolerantlıqdan danışan təşkilat sədri vurğulayıb ki, ölkəmizdə müsəlman, xristian, yəhudi gənclər birlikdə fəaliyyət göstərirlər. Azərbaycan Ermənistanla münaqişə vəziyyətində olsa da, bu gün Bakıda erməni kilsəsi mövcuddur. Bu, Azərbaycanın fərqli mədəniyyətlərə və dinlərə dəyər verdiyini göstərir.



Anna Lind Fondunun nümayəndəsi Elyanora İnsalako qeyd edib ki, paneldə əsasən gənc xanımların iştirakı təqdirəlayiqdir. Bildirib ki, təmsil etdiyi fond dünyanın müxtəlif yerlərində, xüsusilə də Aralıq dənizi hövzəsi ölkələrində geniş fəaliyyət göstərir. Hazırda qurum "Gənclərin səsi" layihəsi üzərində çalışır. Bu layihənin məqsədi gənclərdə liderlik bacarığının artırılması və debat aparmaq imkanlarının inkişaf etdirilməsidir.

Sonra ABŞ-ın Dyuk Universitetinin professoru Darla Duadorfun videoçıxışı yayımlanıb. O, mədəniyyətlərarası dialoqun, gənclər arasında əlaqələrin əhəmiyyətini qeyd edib. Bildirib ki, UNESCO-nun reallaşdırdığı layihələr dünya gəncləri arasında əməkdaşlığı gücləndirir.

Kosta-Rika Aborigen Fondunun üzvü Lusyana Batala Bun bildirib ki, UNESCO-nun müvafiq layihəsi sayəsində ölkəsində gənclərin görüşü təşkil edilib. Bu görüşün çox faydalı nəticələri olub.

Frans Jonas Avropa Tədris Mərkəzinin müəllimi Anna Mariya Hase deyib ki, o, Avstriyanın paytaxtı Vyana ətrafında bir məktəbdə çalışır. Məktəbdə fərqli ailələrdən olan uşaqlarla təmasda olduğunu deyən müəllim bu fərqlilikdən bəhs edib.

İnsan Hüquqları üzrə Ərəb İnstitutunun təlimçisi Yasmin Vertani də diqqəti UNESCO-nun gənclər arasında dialoqun qurulmasına imkan verən layihələrinə yönəldib. Qeyd edib ki, gənclərin bir-birinə yaxınlaşması imkanını yaradan bu layihələr, eyni zamanda, onların üzərindəki psixoloji gərginliyin aradan qaldırılmasına imkan verir.

Sessiya müzakirələrlə davam edib.

# Mədəniyyətlərarası dialoq müasir dövrün zəruri çağırışıdır

## Forum çərçivəsində Nazirlərin yüksək səviyyəli görüşü keçirilib



*əvvəli səh. 1-də*

İSESCO-nun Baş katibi son illər terrorizmi İslam dini ilə əlaqələndirmək kimi yersiz fikirlərə də münasibət bildirib. Qeyd edib ki, İslah sülh, bərabərlik, qarşılıqlı hörmət və insanlığa xidmət edən bir dindir.

**Mədəniyyət insanları dialoqa kökləyə bilər**

Uruqvayın Xarici işlər naziri Rodolfo Nin Novoa mədəniyyətlərarası dialoqun sülhü irəliyə doğru aparan bir vasitə olduğunu bildirib. Vurğulayıb ki, bu dialoq bəşər tarixinin anlaşılmasına, müxtəlif ölkələr arasında yaxınlaşmaya xidmət edir: “Musiqinin, mədəniyyətin dili insanları dialoqa kökləyə bilər. Biz bunun sayəsində güclü əlaqələr qura və dəstəyə nail ola bilərik. Bu, xalqların rifahı üçün lazımdır”.

Sülhün bərqərar olması üçün Dünya Mədəniyyətlərarası Dialoq Forumunun böyük önəm daşıdığını söyləyən Qana Respublikasının Xarici işlər naziri Şirli Botçvey deyib ki, ölkəsi buradakı müzakirələrə töhfə vermək istəyir. Nazir Qanada insanlar, dinlər arasında mövcud olan həmrəylikdən, müxtəlifliyə verilən dəyərlərdən də söz açıb.

İranın Mədəniyyət və İslam Əlaqələri Təşkilatının sədri Abuzər İbrahimi Türkaman Forumun işini yüksək dəyərləndirib. Bildirib ki, müasir dünyada kamil insan yetişdirmək üçün xalqların sülh içində yaşaması zəruridir: “Heç vaxt dünyamız indiki qədər ədalətsizlikdən və qanunsuzluqdan əziyyət çəkməyib. Bu səbəbdən də dünyanın sülhə və sabitliyə böyük ehtiyacı var”.

Monteneqronun Mədəniyyət naziri Aleksandr Boqdanoviç deyib ki, bu cür dialoq vasitəsilə sülhə, insan təhlükəsizliyinə nail ola bilərik. Ölkəsinin Azərbaycanla geniş əməkdaşlıq qurmaqda maraqlı olduğunu söyləyən nazir bildirib ki, hazırda bu istiqamətdə danışıqlar aparılır.

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un Baş katibi Düsen Kaseinov Forumun dünyada sülhün bərqərar olmasına mühüm töhfələr verdiyini vurğulayıb. Bildirib ki, Prezident İlham Əliyevin 2019-cu ili “Nəsimi ili” elan etməsi TÜRKSOY-un fəaliyyət proqramına yeni bir stimul verib. Təşkilat böyük Azərbaycan şairinin həyat və yaradıcılığının tanıdılması və təbliği məqsədilə təşkil olunacaq tədbirlərə geniş yer ayırıb.

Forumun qloballaşma prosesində anlaşmaya təkan verdiyini söyləyən Küveyt Dövlətinin İnformasiya və gənclərlə iş naziri Mohammad Naser Abdullah Aljabri deyib ki, mədəniyyətlərarası dialoq günümüzün zərurətidir. Bütün ölkələrin, etnik qrupların mədəniyyətləri bəşəriyyətin irsidir.

Sonra görüşdə iştirak edən Qambiyanın Xarici işlər naziri Mamadou Tanqara, Əlcəzairin Mədəniyyət naziri Meriem Merdaci, Myanmanın Təhsil naziri Myo Thein Gyi, Qırğızıstanın Mədəniyyət, informasiya və turizm naziri Azamat Zhamankulov, İnsan Hüquqlarının İnkişafı və Qlobal Dialoq üzrə Cenevrə Mərkəzinin icraçı direktoru İdris Cəzairi, TÜRKPA-nın nümayəndəsi Sadık Şer-Niyaz və başqalarının çıxışları dinlənilib.

Geniş fikir mübadiləsinin aparıldığı Nazirlər görüşünə yekun vuran Əbülfəs Qarayev bildirib ki, mayın 3-də davam edən tədbirdə aktual mövzuları özündə əks etdirən məruzələr təqdim olunacaq.

**L.ƏLƏKBƏROVA**

# Anlaşmanın tək yolu dialoqdur

## “Dinlərarası dialoq və dini müxtəlifliyin idarə olunması” mövzusunda akademik forum



Mayın 1-də Bakıda V Dünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində “Dinlərarası dialoq və dini müxtəlifliyin idarə olunması” mövzusunda III akademik forum keçirilib.

UNESCO-nun Mədəniyyətlərarası dialoq şöbəsinin müdiri Ann-Belinda Preisin moderatorluğu ilə keçirilən tədbirdə çıxış edən mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva mədəniyyətlərarası dialoq sahəsində müzakirələrin xüsusi əhəmiyyəti olduğunu qeyd edib. Bildirib ki, bu sahədə bütün dünyada elmi araşdırmaların artması təqdirəlayiqdir.

Sevda Məmmədəliyeva Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüskarı olduğu “Bakı Prosesi” barədə ətraflı məlumat verib. Bildirilib ki, “Bakı Prosesi” çərçivəsində Azərbaycanda bir çox mühüm beynəlxalq tədbirlər keçirilib. Bu tədbirlərdə dünyanın ictimai, siyasi və din xadimləri, alimlər iştirak ediblər.

Azərbaycanda dövlət-din münasibətlərinə toxunan nazir müavini qeyd edib ki, ölkəmizdə din dövlətdən ayrı olsa da, dindarlar xüsusi qayğı ilə əhatə ediliblər.

Mədəniyyətlərarası anlaşma üçün dinlərarası dialoqda UNIWIN şəbəkəsinin əlaqələndiricisi Fəthi Mənsuri Yeni Zelandiyada, Şri-Lankada törədilən terror aktları barədə danışıb. Bildirib ki, bu hadisələr əksər hallarda dini savadsızlıq səbəbindən baş verir. O, həmçinin dinlərarası dialoqun olmamasının bu kimi xoşagəlməz halların baş verməsində rolunu qeyd edib.

Dünyada dinlərarası dialoqun qurulması istiqamətində görülən işlərdən danışan BMT-nin din və inkişaf üzrə qurumlararası işçi qrupunun əlaqələndiricisi Azza Kərəm bu sahədə müəyyən uğurlara nail olunmasına baxmayaraq, hələ də çox sayda problemlərin qaldığını deyib. Əlavə edib ki, son zamanlar dünyada yaşanan faciəvi hadisələr dinlərarası dialoq sahəsində hələ xeyli işlərin görülməli olduğunu bir daha təsdiq edir.

Tədbir mövzu ətrafında müzakirələrlə davam edib.

# Dayanıqlı inkişaf məqsədləri üçün tərəfdaşlığın qurulması

## Beynəlxalq təşkilatların yüksək səviyyəli görüşü

Mayın 2-də Bakı Konqres Mərkəzində V Dünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlayıb. Forumun ilk günündə Beynəlxalq təşkilatların yüksək səviyyəli görüşü keçirildi. BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Qulam İsakzainin moderatorluğu ilə keçən iclasda “Dayanıqlı inkişaf məqsədləri üçün tərəfdaşlığın qurulması” mövzusunda məruzələr dinlənildi.

UNESCO-nun Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Nada Al Nasif tərəfdaşlığın gücləndirilməsi istiqamətində BMT-nin rolu və görülən işlər barədə danışdı: “Dünya ölkələri Dayanıqlı İnkişaf Məqsədlərini qəbul etdilər. Bu məqsədlər aclığa son qoymaq, insan həyatını dəyişmək və planetimizi qorumaq üçün ölkələrin qlobal fəaliyyət istiqamətlərini müəyyən edəcək yeni inkişaf gündəliyinin təməlini qoyub. Bu məqsədlər həm də vətəndaş cəmiyyətinin səviyyəsinin yüksəlməsinə xidmət edir. Dayanıqlı İnkişaf Məqsədlərinin reallaşması istiqamətində dünyada müqavimət və münaqişələrin aradan qaldırılmasında qadınların rolunu da gücləndirmək bizim iş prinsiplərimizdən biridir. Eləcə də gənclərin bu proqrama qoşularaq özlərini təsbit etmələrinə şərait yaradılır. Effektiv vətəndaş cəmiyyətinin yaradılması üçün mədəni-maarif təşviqatının aparılması da mühüm istiqamətlərdən biri kimi dəyərləndirilir. BMT özlüyündə həm də mədəni evdir. UNESCO-nun bu sahədə fəaliyyəti çox önəmlidir”.




Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova məruzəsində bildirdi ki, Azərbaycanda dayanıqlı və inklüziv iqtisadi inkişafı təbliğ etmək, institusional bacarıqları, eləcə də səmərəli ictimai və sosial xidmətləri gücləndirmək, həmçinin ətraf mühitin idarə edilməsi və təbii fəlakətlərə qarşı dayanıqlığı artırmaq əzmindəyik. Nazir müavini diqqətə çatdırdı ki, bu ilin sonunda Azərbaycan Nyu-Yorkda keçiriləcək yüksək səviyyəli forumda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına dair hesabatını təqdim edəcək: “Hesabatda ölkəmizin Dayanıqlı İnkişaf Məqsədlərinin 62 faizini əhatə etməsinə dair məlumatlar yer alıb. Qalan 38 faizi isə 2030-cu ilə qədər planlarımızda əhatə etməyi nəzərdə tuturuq. Biz bunu beynəlxalq təşkilatlarla etmək niyyətindəyik. Azərbaycan artıq qeyd edilən məqsədlərdən bir çoxuna nail olub. Hazırda ölkəmizdə yoxsulluq səviyyəsi 5 faiz təşkil edir. Bu, bəzi inkişaf etmiş ölkələrlə müqayisədə xeyli aşağı göstəricidir”.

Sevinc Həsənova qeyd etdi ki, hazırda Azərbaycan hökuməti Dayanıqlı İnkişaf Məqsədlərinin milliləşdirilməsi prosesindədir: “Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası tərəfindən hər il hesabatlar hazırlanır və ölkə başçısına təqdim edilir. Bu, ölkəmizin 2030-cu ilədək inkişaf yolunu göstərir və bələdçi rolunu oynayır. Gələn il “Azərbaycan 2020: Gələcəyə baxış” inkişaf konsepsiyasını yekunlaşdıracağıq və daha sonra növbəti 10 illik proqram üzərində çalışacağıq”.

Sonra iclasda UNİSEF-in uşaq müdafiəsi üzrə Avropa və Mərkəzi Asiya üzrə regional məsləhətçisi Aaron Qrinberq, BMT-nin İnkişaf Proqramı İstanbul Regional Mərkəzində Dayanıqlı inkişaf komandasının rəhbəri Corc Bouma, BMT-nin Dünya Turizm Təşkilatının icraçı direktoru Manuel Butler Halter məruzələrində Azərbaycan hökumətinə ev sahibliyinə görə təşəkkür edərək qurumların fəaliyyəti haqqında qısa hesabatlarla çıxış etdilər.

Vurğulandı ki, hər il Dayanıqlı İnkişaf Məqsədləri üçün erkən uşaqlıq inkişafı layihələrinə, onların bərabərsizliyi naminə böyük məbləğdə sərmayələr qoyulur. Sosial ədalət və bərabərsizlik üçün ayrılan vəsait eyni zamanda xidmətlərə çıxış əldə etməlidir. Dünyada insanların gəlir bərabərsizliyi siyasətlə əlaqələndirilir. Dayanıqlı İnkişaf Məqsədləri üzərində çalışarkən bu sahədə ölkələrin düzgün inkişaf konseptinə də nəzər yetirmək zəruridir.

Daha sonra iclas müzakirələrlə davam etdi.

**LALƏ**

# Müasir dünyanı narahat edən aktual məsələlər müzakirə mövzusudur

Bakıda “Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq” şüarı altında keçirilən 5-ci Dünya Mədəniyyətlərarası Dialoq Forumunda 100-dən çox ölkə və 30-dan çox beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə ümumilikdə 20-dən çox tədbir təşkil olunacaq.



Ötən müddət ərzində Forumun coğrafiyası genişlənib, tədbirə qoşulan qurumların sayı artıb. 5-ci Dialoq Forumu çərçivəsində insan həmrəyliyini yaratmaq və müxtəlif icmalarda zorakılığa və ayrı-seçkiliyə qarşı mübarizədə yerli insanlara kömək etmək üçün mədəniyyətlərarası dialoqun mühüm rolu öyrəniləcək.

Bu barədə mayın 1-də Bakı Konqres Mərkəzində Forumla bağlı təşkil olunan mətbuat konfransında Mədəniyyət Nazirliyinin Aparat rəhbərinin müavini – Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadə bildirdi. Şöbə müdiri diqqətə çatdırdı ki, tədbirin təşkilatçıları Azərbaycan Hökuməti və Mədəniyyət Nazirliyi, tərəfdaşları UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və İSESCO-dur. Forumun BMT-nin internet səhifəsi üzərindən canlı yayımlanması da ona olan beynəlxalq diqqətin göstəricisidir.

Vurğulandı ki, 2008-ci ildən Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən “Bakı Prosesi” müxtəlif qitələrdə yaşayan fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlayış və hörmət çərçivəsində səmimiyyət və qarşılıqlı hörmətə əsaslanan fikir mübadiləsi üçün pozitiv platformaya çevrilib. Forum üç istiqamətdə davam edəcək. Mədəniyyətlərarası dialoq və insan ləyaqətini təbliğ etməklə inklüziv və davamlı cəmiyyətlərin qurulmasında dövlət, özəl və üçüncü sektoru təmsil edən təşkilatlar üçün ümumi yol xəritəsini hazırlamaq məqsədilə beynəlxalq təşkilatların və nazirlərin 2-ci yüksək səviyyəli görüşü keçiriləcək. “Dinlərarası dialoq və dini müxtəlifliyin idarə olunması” mövzusunda akademik forum, “Qlobal vətəndaşlıq təhsili: sülh mədəniyyətinin aşılanması”, “Sülh naminə çoxtərəflilik və diplomatiya”, “Türkdilli ölkələr arasında dialoqun qurulmasında Böyük İpək Yolunun rolu” və digər mövzularda plenar və aralıq sessiyalar keçiriləcək. Həmçinin tədbir günlərində qonaqlar üçün sərgilər açılacaq, musiqili proqramlar təşkil ediləcək.

Koventri Universitetinin Sülh, Etimad və Sosial Münasibətlər Mərkəzinin icraçı direktoru Mayk Hardi, Avropa Şurasının Şimal-Cənub Mərkəzinin Qlobal Təhsil Proqramının meneceri Migel Silva, UNESCO-nun Mədəniyyətlərarası dialoq bölməsinin rəhbəri Ann-Belinda Preys və İSESCO-nun xoşməramlı səfiri, İtaliya İslam Dini Cəmiyyətinin prezidenti Yahya Pallavicini “Bakı Prosesi”nin əhəmiyyətini yüksək qiymətləndirərək Azərbaycan Hökumətinə belə bir Forumun təşkilinə görə minnətdarlıqlarını bildirdilər.

Qeyd olundu ki, iki gün ərzində Bakıda müasir dünyanı narahat edən aktual məsələlər müzakirə mövzusu olacaq. Forumda “Müxtəlifliyin idarə olunması: çoxsəviyyəli və çoxtərəfli əməkdaşlıq”, “Sülh naminə gənclər: şiddətli ekstremizmə qarşı əks qüvvənin formalaşdırılması” və “Miqrasiya, yerdəyişmə və insan təhlükəsizliyi” mövzularında üç əsas plenar sessiya keçiriləcək. Vurğulanıb ki, dünyada sülh və bərabərliyin, qarşılıqlı etimad və anlaşmanın əldə olunmasında bu Forum böyük əhəmiyyət kəsb edir.

Sonda jurnalistləri maraqlandıran suallar cavablandırıldı.

**Fariz HÜSEYNOV**

# BMT Bakı Forumu haqqında

## Ədavətə müqavimət göstərmək, mədəniyyətlərarası və dinlərarası dialoqu dəstəkləmək

*əvvəli səh. 1-də*

Alyansın Ali nümayəndəsi qeyd edib ki, ədavət təzahürləri daim mövcud olub, lakin bu gün “ədavətə qayıdış” prosesi baş verir. Onun sözlərinə görə, ədavət hissi insanlarda öz opponentlərini parçalamaq və məhv etmək cəhdləri əmələ gətirir. Bu gün, bu çətin və qeyri-müəyyən dövrümüzdə mədəniyyətlərarası dialoqun dəqiq strategiyasını yaratmaq xüsusilə zəruridir.

Moratinos mövcud problemlərin hərbi, maliyyə və siyasi vasitələrlə həll edilməsi barədə təsəvvürləri bayağılıq adlandırıb. Onun fikrincə, belə hallarda sosial-mədəni yanaşma tətbiq etmək və bu problemin kökünü axtarmaq lazımdır. Moratinos deyib: “Biz qonşularımızın dünyagörüşünün necə olmasını, belə vəziyyətə gətirib çıxaran, bu və ya digər problemlərin necə yaranmasını və nə ilə sona yetəcəyini başa düşməyincə, hansısa uzunmüddətli həll yollarını tapmaq çətin olacaq”.

Moratinos hesab edir ki, BMT-nin dəstəyi ilə keçirilən Bakı Forumu bu prosesə əhəmiyyətli töhfə verəcək: “Forum beynəlxalq ictimaiyyətə mühüm siqnal göndərəcək: biz birlikdə yaşaya bilərik, biz bir-birimizə hörmətlə yanaşa bilərik, biz müxtəlif mədəniyyətləri və dinləri anlamağı öyrənməliyik”.

# Qarşılıqlı mədəniyyət günləri ölkələrimizin əməkdaşlığını möhkəmlədir

Mayın 1-də Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev Bakıda səfərdə olan İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Abuzər İbrahimi Türkamanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Nümayəndə heyəti V Dünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək üçün ölkəmizdə səfərdədir.

Qonaqları salamlayan nazir Azərbaycanla İran arasında mövcud olan dostluq münasibətlərinin xalqlarımızın əsrlər boyu malik olduğu mədəni, tarixi bağlantılara söykəndiyini bildirib. Qeyd edib ki, bu gün iki ölkə arasında bütün sahələrdə əməkdaşlıq inkişaf edir.

Abuzər İbrahimi Türkaman öz növbəsində ölkələrimiz arasında qarşılıqlı hörmətə və dostluğa əsaslanan əlaqələrdən məmnunluğunu ifadə edib. O, ötən müddətdə hər iki ölkədə qarşılıqlı mədəniyyət günlərinin tərəflərin dəstəyi və səyi ilə yüksək səviyyədə gerçəkləşdiyini qeyd edərək bu tədbirlərin əhəmiyyətini vurğulayıb.



İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə və İranın ölkəmizdəki Mədəniyyət Mərkəzinin direktoru Əsgər Farsinin də iştirak etdiyi görüşdə gələcək illərdə birgə kino həftələri, mədəniyyət günlərinin keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Əbülfəs Qarayev İrandakı tədbirlər çərçivəsində görüşlərini xatırladaraq belə tədbirlərin bundan sonra da iki ölkə arasında əməkdaşlığa müsbət təsir göstərəcəyini, mədəni əlaqələrin daha da sıx inkişafına təkan verəcəyini bildirib. İran kino mütəxəssisləri ilə birgə layihələrdən, İranda təşkil edilən Fəcr festivalında Azərbaycan teatrının uğurlu iştirakından söz açan nazir mədəniyyətin digər sahələrində birgə əməkdaşlığın perspektivlərini də diqqətə çatdırıb.

Bakıda ənənəvi olaraq keçirilən Dünya Mədəniyyətlərarası Dialoq Forumunda İran İslam Respublikasının hər zaman yaxından iştirak etdiyini vurğulayan nazir nümayəndə heyətini cari ilin sentyabrında gerçəkləşəcək növbəti Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasına dəvət edib.

İran nümayəndə heyətinin rəhbəri Abuzər İbrahimi Türkaman sonda bir daha bu kimi görüşlərin qarşılıqlı əməkdaşlığın möhkəmlənməsinə töhfə verdiyini vurğulayıb və səmimi qəbula görə təşəkkürünü bildirib.

## Gürcüstanla mədəni əlaqələrdən söhbət açılıb

Mədəniyyət naziri Əbülfəs Qarayev Bakıda səfərdə olan Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman nazirinin birinci müavini Mixeil Giorqadze ilə görüşüb.

Əbülfəs Qarayev qonaqları salamlayaraq mədəniyyət sahəsində iki ölkə arasında əlaqələrin dinamik inkişafından məmnunluğunu ifadə edib, əməkdaşlığı daha da genişləndirmək üçün yaxşı imkanların olduğunu bildirib.

Səmimi qəbula görə minnətdarlığını bildirən Mixeil Giorqadze bu əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Görüşdə maraq doğuran digər məsələlər müzakirə olunub.

# Kitabı tanıdın, kitabla tanının!

## IV Buktreyler Festivalının qalibləri mükafatlandırıldı



Mayın 1-də Beynəlxalq Muğam Mərkəzində IV Buktreyler Festivalı qaliblərinin mükafatlandırılması mərasimi keçirildi.

Əvvəlcə tanınmış şəxslərin mütaliəyə çağırışlarının və ilk festivalın qaliblərinin işlərindən görüntülərin yer aldığı video-çarx nümayiş olundu.

Sonra Buktreyler festivalının təsisçisi, kinoaktyor, prodüser Ruslan Sabirli çıxış edərək layihənin məqsəd və perspektivlərindən söz açdı. Bildirdi ki, festival Mədəniyyət Nazirliyinin dəstəyi ilə “Kitabı tanıdın, kitabla tanının!” devizi altında keçirilir. Buktreyler kitabın məzmununu vizuallaşdırmaqla oxucular arasında təbliğinə yönələn, onun ən maraqlı məqamlarını özündə əks etdirən video-çarx və ya kitabın məzmunundan bəhs edən qısametrajlı filmlərdir.

Buktreylerin ədəbiyyat, kino, reklam və internet texnologiyalarını özündə cəmləşdirən incəsənət növü olduğunu diqqətə çatdırdan Ruslan Sabirli festivalın təşkilində göstərdiyi dəstəyə görə Mədəniyyət Nazirliyinə, Beynəlxalq Muğam Mərkəzinə, C.Cabbarlı adına “Azərbaycanfilm” Kinostudiyasına və layihənin builki əsas tərəfdaşı “Azercell” şirkətinə təşəkkürünü bildirdi. Qeyd etdi ki, builki festivalın münsiflər heyətində Xalq artisti Əbdül Mahmudbəyov, Əməkdar incəsənət xadimi Orxan Fikrətoğlu, əməkdar artistlər Gülzar Qurbanova, Məlahət Abbasova, yazıçı-publisist Günel Anarqızı təmsil olunub.



Mədəniyyət Nazirliyinin Regional siyasət şöbəsinin müdiri Pərviz İsgəndərli layihənin əhəmiyyətindən bəhs etdi. Vurğuladı ki, layihə kitabın təbliği, mütaliəyə münasibətin yaradıcı formalarının inkişafı və dəstəklənməsi, kino sahəsində istedadlı və yaradıcı gənclərin üzə çıxarılması, buktreylerlərin incəsənət və biznesdə bir istiqamət kimi inkişafına xidmət edir.

Daha sonra qaliblər mükafatlandırıldı.

Eybulla Ağadadaşov (“Üçüncü addım. Rəqəmsal meşə” əsərinə (yazar – Qaraqan) çəkilmiş buktreyler) I yerə, Ruslan Zeynalov (“Bakıdan sevgilərlə”, Samid Ağayev), Rəşad Hüseynov (“Gəncsən? Başla!”, Nadir Adilov) II yerə layiq görüldülər.

Şövkət Məhərrəmova (“6:45 qatarı”, Ramiz Rövşən) və Vüsal Həmdullayev (“Dünənəm! Bu günəm! Gələcəyəm mən!”, Xəlil Rza Ulutürk) üçüncü yerin sahibi oldular. Bundan əlavə, “Tamaşaçı simpatiyası” nominasiyasında Gülşən Quliyeva (“Anamın portreti”, Gülzar İbrahimova) və “Ən yaxşı mobil buktreyler” nominasiyasında Sadiq Fərzəlibəyli (“On dördüncü adam”, Elxan Elatlı) mükafatlandırıldı.

Tədbirin sonunda “Savalan” musiqi qrupunun ifasında konsert təqdim olundu.

**LALƏ**

## Xalq artisti Ramiz Mirişlinin xatirəsi yad ediləcək

Mayın 4-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında Xalq artisti, bəstəkar Ramiz Mirişlinin 85 illiyinə həsr olunmuş yubiley gecəsi keçiriləcək.

Gecədə bəstəkarın həyat və yaradıcılığından danışılacaq, musiqi mədəniyyətimizin inkişafındakı xidmətləri vurğulanacaq. Tədbir konsert proqramı ilə davam edəcək.

Konsertdə Mustafa Mehmandarovun dirijorluğu ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və Xalq artisti Gülbacı İmanovanın dirijorluğu ilə Dövlət Xor Kapellası çıxış edəcək.

## Əhməd bəy Ağaoğlunun 150 illiyinə həsr olunan elmi seminar

Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) “Əhməd bəy Ağaoğlu – 150 illik fikir dühamız və difaimiz” adlı elmi seminar keçirilib.

Mühacirət ədəbiyyatımızın görkəmli nümayəndəsi, ictimai-siyasi xadim, yazıçı-publisist, türkoloq Əhməd bəy Ağaoğlunun (1869-1939) 150 illiyi münasibətilə təşkil olunan seminar universitetin Tələbə gənclər təşkilatı tərəfindən reallaşdırılıb.

Seminarda gənc araşdırmaçı, jurnalist, “Çapar” dərgisinin baş redaktoru Dilqəm Əhməd görkəmli ədibin həyat və fəaliyyəti, alim, hüquqşünas, millət fədaisi kimi çoxcəhətli fəaliyyətindən söz açıb.

Tədbirdə ədibin yubileyi münasibətilə D.Əhməd tərəfindən tərtib edilən və Ə.Ağaoğlunun xatirələri, yazıları, eləcə də Ağaoğlular ailəsinə aid nadir fotoşəkillər və sənədlərin, həmçinin Mustafa Kamal Atatürkə yazdığı iki məktubun da yer aldığı “Şuşa, Peterburq və Paris xatirələri” kitabı haqqında məlumat verilib.

Sonra tələbələri maraqlandıran suallar cavablandırılıb, tədbir diskussiya şəklində davam etdirilib.

## Yubileylərə həsr olunmuş tədbirlər

Sumqayıt Regional Mədəniyyət İdarəsinin müəssislərində silsilə yubiley tədbirləri keçirilib.

Sumqayıt şəhər MKS və Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin 150 illik yubileyi ilə əlaqədar istedadlar müsabiqəsi keçirilib.

Tədbirdə MKS-nin oxucuları və 15 nömrəli orta məktəbin müəllim və şagird kollektivi iştirak edib. İştirakçıların ifasında Cəlil Məmmədquluzadənin əsərlərindən monoloqlar və felyetonları dinlənilib. Münsiflər heyətinin qərarına əsasən, üç qalib seçilərək mükafatlandırılıb.

Şəhər Mərkəzi Uşaq Kitabxanasında “Nəsiminin mənəvi irsi” adlı oxucu konfransı təşkil edilib. “Nəsimi ili” çərçivəsində keçirilən tədbirə 12 və 16 nömrəli məktəbin şagirdləri qatılıb. Böyük şairin yaradıcılığı ilə bağlı məruzələr dinlənilib.

# Bakı Xoreoqrafiya Akademiyasının konsert proqramı





Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Opera studiyasında Bakı Xoreoqrafiya Akademiyasının (BXA) İncəsənət fakültəsinin tələbələri 30 aprel – Beynəlxalq Rəqs Gününə həsr olunmuş konsert proqramı ilə çıxış ediblər.

BXA-nın 90 illik yubileyi çərçivəsində təşkil olunan tədbirdə ali təhsil müəssisələrinin rektorları, xarici ölkələrin diplomatik nümayəndələri, mədəniyyət xadimləri, BXA-nın professor-müəllim heyəti iştirak edib.

Konsertdə Xalq artisti Yusif Qasımovun quruluş verdiyi “Azərbaycan süitası”, “Yüz biri” rəqsi, Xalq artisti Afaq Məlikovanın quruluşunda “Qarabağ yallısı”, Əməkdar müəllim Pullumb Aqalıyayın quruluş verdiyi “İgidlər”, “Əməkdar artist Eteri Cəfərovanın quruluşunda “Sind” osetin rəqsi təqdim olunub. Proqramda həmçinin BXA-nın İncəsənət fakültəsi müəllim-tələbə heyətinin quruluş verdiyi digər rəqslər, o cümlədən “Meksika xatirələri”, “Kartuli” gürcü rəqsi, “Cıdır düzü”, “Qavalla rəqs”, “Özünü tap”, “İgidlər”, “Çin rəqsi”, “Tənha insan”, “Sənətkar taleyi”, “İspan rəqsi”, “Yüz biri” rəqsi, “Ölümlə tanqo” və s. nömrələr akademiyanın müəllim və tələbələri tərəfindən ifa olunub.

Böyük maraq doğuran konsert alqışlarla qarşılanıb.

# Tolerantlıq festivalının ilk sərgisi təqdim olunub

*əvvəli səh. 1-də*

İkinci hissənin mövzusu “Avropa siyasətçiləri” adlanır. Fotoqraf bu ad altında Avropa Komissiyası və Avropa Parlamentində siyasi liderlərin şəkillərini nümayiş etdirir. Fotoqraf Brüsseldə çəkiliş apararkən Avropanın bütün nöqtələrinə toxunur. N.Landemard öz çıxışında qeyd edib ki, bəzi fotomüxbirlər müharibə ocaqlarına gedərək oradan materiallar toplayırlar. Bu mənada Avropada qalmaq məqsədə uyğundur, daha Suriya kimi qaynar nöqtələrə getməyə ehtiyac qalmır.

Sərgidə üçüncü hissə “Brüsseldə yerləşən Avropa məhəllələri” adlanır. Belçikalılar bu ərazini “batmış məhəllə” adlandırırlar. Orada vaxtilə köhnə binalar olub, ancaq onlar sökülərək yerində zövqsüz, müasir binaların tikintisinə başlanılıb. Yerli camaat da bu məhəllədə aparılan işləri uğursuz layihə adlandırıb. Get-gedə böyüyən belə məhəllələrə belçikalılar “Brüsselizasiya” adını verib.



Tədbirdə çıxış edən Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi rəhbərinin birinci müşaviri Denis Daniilidis deyib: “Mən çox sevinirəm ki, çəkdiyimiz ağır zəhmətin nəticəsində biz bir daha İMAGİNE Avropa Tolerantlıq Festivalını sizlərə təqdim edə bildik. Bu festival çox fərqlidir, çünki o, mədəniyyətləri görüşdürür. Əsas odur ki, festivala gələn turistlər Azərbaycana bir dəfə gəlməklə kifayətlənmirlər. Onlar Azərbaycan mədəniyyətini kəşf etdikdən sonra buraya yenidən qayıdırlar. Çünki bu festivalın məqsədi körpülər qurmaqdır. Azərbaycan tolerant bir ölkə olduğundan belə bir kommunikasiya xətlərinin yaradılmasından qürur hissi keçiririk”.

Sonra sərgiyə baxış keçirilib.

Qeyd edək ki, festival Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, “Cinema Plus”, “The Landmark” Biznes Mərkəzi, Nizami Kino Mərkəzi, “Bakı Metropoliteni” QSC, “Salaam Cinema”, Məhsəti Gəncəvi Mərkəzi, YARAT Müasir İncəsənət Mərkəzi, İbrahim Əbilov adına Mədəniyyət Mərkəzi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, ADA Universiteti və Venesiyanın “Ca Foscari” Universiteti tərəfindən dəstəklənir.

# Azərbaycan Dillər Universitetində Məzunlar Assosiasiyası təsis olunub




Mayın 1-də Azərbaycan Dillər Universitetində (ADU) bu təhsil ocağını müxtəlif illərdə bitirmiş məzunların iştirakı ilə Məzunlar Assosiasiyasının təsis konfransı keçirilib.

Tədbirin əvvəlində ADU-nun fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Ali məktəbin rektoru, akademik Kamal Abdulla çıxış edərək bildirib ki, universitetin məzunları arasında dövlətimizin ictimai-siyasi, mədəni həyatında, eləcə də digər sahələrdə yüksək mövqe qazanmış məzunları var və biz bu gün onlarla fəxr edirik. Diqqətə çatdırılıb ki, ADU-nun Məzunlar Assosiasiyası bu təhsil ocağının məzunlarının təklifi və universitet rəhbərliyinin təşəbbüsü ilə yaradılan ictimai və sosial təşkilatdır. Assosiasiyanın yaradılmasında məqsəd ADU məzunlarının harada olmasından asılı olmayaraq, onlarla əlaqə yaratmaq, vaxtaşırı görüşlər keçirməklə dünyanın bütün ölkələrinə yayılmış məzunları bir araya gətirmək, onların sahibkarlıq, işgüzarlıq, elmi və yaradıcı fəallıqlarının inkişafına təsir göstərməkdir. Assosiasiyanın ən şərəfli vəzifəsi öz məzunları vasitəsilə Azərbaycan Dillər Universitetinin nüfuzunun ölkəmizdə və dünyada daha da artmasına kömək etməkdir.

Sonra rektor Məzunlar Assosiasiyasının təsis olunması münasibətilə bu təhsil ocağının məzunu olmuş Baş nazir Novruz Məmmədovun təbrik məktubunu tədbir iştirakçılarının diqqətinə çatdırıb.

ADU-nun məzunu olmuş mədəniyyət naziri Əbülfəs Qarayev konfransda çıxış edib. Nazir bildirib ki, dünyada belə assosiasiyalar məzunlar arasında dostluq və əməkdaşlıq münasibətlərinin yaradılması, möhkəmləndirilməsi və onların universitetin müasir həyatına cəlb edilməsində mühüm rol oynayır. Vurğulanıb ki, ulu öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərliyə başlayandan sonra, respublikada bütün sahələrdə olduğu kimi, təhsil sistemində, xüsusən ali təhsilli mütəxəssislərin hazırlanması, onların nəzəri və peşə biliklərinin artırılması, tədris-tərbiyə prosesinin təşkilində müasir elmi metodların tətbiq olunması sahəsində də ciddi dəyişikliklər edildi. Ölkəmiz müstəqillik qazandıqdan sonra bütün ali təhsil ocaqları kimi, bu universitet də ulu öndərin diqqət və qayğısı ilə özünün yeni inkişaf yoluna qədəm qoyub. Məhz aparılan ardıcıl və məqsədyönlü islahatların nəticəsi olaraq bu gün universitetin məzunları dünyanın müxtəlif ölkələrində və beynəlxalq tədbirlərdə ölkəmizi uğurla təmsil edirlər.

Tədbirdə Milli Məclisin deputatları Cavanşir Feyziyev, Sevinc Fətəliyeva, sabiq xarici işlər naziri Hüseynağa Sadıqov, Rusiyanın TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman, Azərbaycanın Xorvatiyadakı səfiri Fəxrəddin Qurbanov, ADU-nun professorları Sərxan Abdullayev, Məsməxanım Qazıyeva və başqaları çıxış edərək assosiasiyanın təsis olunmasının əhəmiyyəti barədə mülahizələrini bölüşüb, gələcək fəaliyyətində uğurlar arzulayıblar.

Diqqətə çatdırılıb ki, assosiasiyanın fəxri üzvləri statusu təsis olunub və bu üzvlüyə ölkənin ictimai-siyasi, iqtisadi, elmi və mədəni həyatında xüsusi xidmətləri olan məzunlar idarə heyətinin dəvəti ilə qəbul edilirlər.

Tədbir bədii hissə ilə davam edib.

# 18 teatr üçün 8 gün

## "Ölülər"ə Mahaçqalada mükafat verilib

*əvvəli səh. 1-də*

Festivalın "Böyük formatlı ən yaxşı tamaşa" üçün nəzərdə tutulan Qran-pri mükafatı M.Auezov adına Qazaxıstan Dövlət Akademik Teatrının "Vanya dayı" (A.Mayemirovun quruluşunda) tamaşasına verilib. Qazaxların tamaşası daha iki mükafata – "Ən yaxşı ssenoqrafiyaya görə" və "Ən yaxşı qadın roluna görə" (Yelena Andreyevna rolunun ifaçısı Janel Makajanova) mükafata layiq görülüb. Dağıstandakı Noqay Dövlət Dram Teatrının "Uçqun" tamaşası (A.Calalovun quruluşunda) "Kiçik formatlı ən yaxşı tamaşa" hesab edilib. "Ən parlaq plastik həll" nominasiyasında isə "Araş" tamaşasının quruluşçu rejissoru B.Basanqov adına Kalmıkiya Milli Dram Teatrının baş rejissoru Boris Manciyev qalib gəlib.

A.P.Salavatov adına Dağıstan Dövlət Kumık Teatrının "Xanuma" tamaşası qazax teatrı kimi üç mükafata layiq bilinib: Dmitri Pavlov "Ən yaxşı rejissor işinə görə", İmam Akautdinov "Ən yaxşı kişi roluna görə", Vera Aqoşkina isə "Ən yaxşı geyim rəssamı" olaraq fərqləndiriliblər.



Azərbaycan teatrı da festivaldan əliboş qayıtmayıb: "Ölülər" tamaşası "Kütləvi səhnələrin yüksək mədəni həllinə görə" mükafatlandırılıb.

Xatırladaq ki, artıq üç mövsümdən bəri teatrın repertuarında olan tamaşanın quruluşçu rejissoru teatrın bədii rəhbəri-direktoru, Xalq artisti Azər Paşa Nemətov, rejissorları Anar Sadıqov və Əlif Cahangirlidir. Tamaşada dahi bəstəkar Qara Qarayevin əsərin 1966-cı il səhnə təcəssümü üçün bəstələdiyi musiqidən istifadə edilib. Səhnə əsərinin elmi məsləhətçisi akademik İsa Həbibbəylidir. Əsas rolları Xalq artisti Nurəddin Mehdixanlı (Şeyx Nəsrullah) və Əməkdar artist Anar Heybətov (Kefli İsgəndər) ifa edirlər.

**GÜLCAHAN**

# Diplomatlar Damcılı mağara düşərgəsində

Aprelin 30-da Azərbaycanda fəaliyyət göstərən xarici diplomatik korpusun nümayəndələri və onların xanımları Qazax rayonuna səfər ediblər.




Prezident Administrasiyası və Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə gerçəkləşən səfərin məqsədi qonaqları ölkəmizin regionlarının inkişafı, bölgələrdə həyata keçirilən layihələr barədə məlumatlandırmaqdır.

40-dan çox ölkəni və beynəlxalq təşkilatı təmsil edən diplomatlar Qazax rayonundakı "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun "Damcılı" filialı – Damcılı bulağı və dünya əhəmiyyətli arxeoloji abidə olan Damcılı mağara düşərgəsi ilə də tanış olublar.

Məlumat verilib ki, Damcılı mağarası Aveydağ mağaralar qrupundan ən böyüyüdür. Təbii çatlardan süzülən su damcılarına görə bu mağara Damcılı adlandırılıb. Burada ilk arxeoloji qazıntılar 1950-53-cü illərdə aparılıb.

2016-cı ildə Yaponiyanın Tokio Universiteti Muzeyi, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu və "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğu arasında üçtərəfli beynəlxalq memorandum imzalanıb və sənədə əsasən hər il yay aylarında qoruq ərazisində beynəlxalq ekspedisiya arxeoloji qazıntılar aparır. Qazıntılar nəticəsində əldə olunan maddi mədəniyyət nümunələri göstərir ki, bu ərazilər qədim insan məskənidir və Orta Paleolit, Üst Paleolit, Mezolit və Neolit dövrlərində buralarda intensiv yaşayış olub.

Qonaqlara Damcılı mağara düşərgəsi haqqında rus, ingilis və Azərbaycan dillərində məlumatları özündə əks etdirən buklet və flayerlər paylanılıb.

## "Keşikçidağ" qoruğunda ağacəkmə aksiyası

Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğu da Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Bu yaz özün bir təbiət yarat" devizli yaz ağacəkmə aksiyasına qoşulub. Xatırladaq ki, bundan öncə aksiya "Qobustan" qoruğunda gerçəkləşmişdi.



"Keşikçidağ" qoruğu ilə Qarayazı təbiət qoruğunun əməkdaşları ərazidəki ən hündür yüksəklik olan "İlham Əliyev adına zirvə"nin ətrafında və mağaralara gedən 600 m turist yolunun hər iki tərəfinə salınmış yaşıllıq parkının genişləndirilməsi məqsədilə ərazinin landşaftına uyğun 600-dən çox şam tingləri əkiblər.

Qədim tarixə malik olan abidələrimizlə yaxından tanış olan tədbir iştirakçılarına qoruq əməkdaşları tərəfindən ətraflı məlumat verilib. Sonda xatirə şəkli çəkdirilib.

## Xalça Muzeyində ümummilli liderin xatirəsi yad edilib

Mayın 1-də Azərbaycan Xalça Muzeyində xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə çıxış edən muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Şirin Məlikova dahi liderin bütün ömrünü Azərbaycan xalqına həsr etdiyini diqqətə çatdırıb. Vurğulanıb ki, ölkəmizdə xalçaçılıq sənətinin dirçəlməsi, Azərbaycan mədəniyyətinin intibahı məhz Heydər Əliyevin diqqət və qayğısı sayəsində mümkün olub.



Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev dahi şəxsiyyət Heydər Əliyevin şərəfli həyat yolundan bəhs edib. O qeyd edib ki, xalqımızın ümummilli liderinin müdrik siyasəti sayəsində Azərbaycan dünyanın inkişaf edən dövlətlərindən birinə çevrilib.

Sonra üzərində Heydər Əliyevin rəsmi olan xalçanın təqdimatı olub. Portretin müəllifi Xalq rəssamı Kamil Əliyevdir.

Tədbir konsert proqramı ilə davam edib.

## "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" mövzusunda tədbir

Ağdaş rayon Heydər Əliyev Mərkəzində ümummilli liderin anadan olmasının 96-cı ildönümü münasibətilə "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" mövzusunda dəyirmi masa keçirilib.

Ağdaş Regional Mədəniyyət İdarəsinin rəisi Ramiz Quliyev ulu öndərin tarixi xidmətləri, Azərbaycan mədəniyyətinə göstərdiyi diqqət və qayğı barədə danışıb.

Ağdaş rayon MKS-nin direktoru Seyfəddin Feyzullayev, Heydər Əliyev Mərkəzinin direktoru Tənzilə Şıxıyeva, şəhər Uşaq musiqi məktəbinin direktoru Rafiq İsgəndərov, Tarix-diyarşünaslıq muzeyinin direktoru Nişanə Quliyeva və digər çıxış edənlər də ümummilli liderin milli mədəniyyət və incəsənətə qayğısı, mədəniyyət işçilərinə verdiyi xüsusi qiymətdən bəhs ediblər.

## Oksford Universitetinin professorları Bakı Musiqi Akademiyasında

Böyük Britaniyanın Oksford Universitetinin professorları David Kerr və Nicholas Thangue Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) olublar.



Akademiyanın rektoru, Xalq artisti Fərhad Bədəlbəyli, beynəlxalq əlaqələr üzrə prorektor, Xalq artisti Yeganə Axundova ilə görüşdə Azərbaycan və Böyük Britaniya arasında mədəni əməkdaşlıq, musiqi təhsilinin inkişafı, müəllim-tələbə mübadiləsinin artırılması və ali musiqi təhsili ocaqları arasında daha sıx əlaqələrin yaradılması kimi məsələlər müzakirə edilib. Həmçinin, iki ölkənin musiqi mədəniyyəti haqqında söhbət aparılıb.

Sonra qonaqlar xalq artistləri Fərhad Bədəlbəyli, Yeganə Axundova və BMA-nın tələbəsi Ceyhun Əzizovun fortepianoda ifalarını dinləyiblər.

## Bakı Türk Anadolu liseyində elm, mədəniyyət və sənət şənliyi

Mayın 1-2-də Bakı Türk Anadolu liseyində "Elm, mədəniyyət və sənət şənliyi" adlı festival keçirilib.

Festivalın ilk günü liseyin şagirdləri tərəfindən düzəldilən motorlu təyyarələr, kağızdan kəsilmiş müxtəlif fiqurlar, fizika qanunlarına uyğun düzəldilmiş qurğular, müxtəlif robotlar, antik əşyalar, astronomik maketlər və s. əl işləri nümayiş olunub.

Bakı Türk Anadolu Liseyinin rəhbəri Nurullah Feyzi Yazıcı festival iştirakçılarını təbrik edib. Bildirib ki, liseyin şagirdləri öz bilik və bacarıqlarını belə tədbirlərdə nümayiş etdirirlər.




Türkiyənin Azərbaycandakı Səfirliyinin təhsil üzrə müşaviri Mahmut Ağırman tədbir iştirakçılarını salamlayaraq deyib: "Mustafa Kamal Atatürk deyib ki, həyatda ən mühüm şey bilikdir. Bu sözləri əsas tutaraq fəaliyyətimizi Azərbaycanda genişləndirməyə çalışdıq. Məqsədimiz bu balaca uşaqlara təhsil verərək onları gələcəyə hazırlamaqdır. Ümid edirəm ki, liseyin şagirdləri burada oxuduqlarından fəxr edəcəklər".

Tədbir zamanı liseyin adından qonaqlara sertifikatlar təqdim olunub. Sonra festival musiqi proqramı ilə davam edib.

Festivalın ikinci günündə şagirdlərin rəsmləri, Nəsimi, Fuat Sezgin, İbn Haldun, Fərabi kimi müsəlman dünyasının mədəniyyətə yön verən dahilərinə həsr olunmuş əl işləri nümayiş olunub.

# İstiqlal tərənnümçülərinə sayğı ilə...

Mayın 2-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Akifdən Vahabzadəyə iki şair, bir şeir - "İstiqlal" adlı panel keçirildi.

Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi, TİKA Bakı Proqram Koordinatorluğu və Bakı Yunus Əmrə İnstitutunun dəstəyi, Türkiyənin Sebilürrəşad Tarix, Təhsil, Mədəniyyət Dərnəyi, İqtisadi Əlaqələr Dərnəyinin (EkoAvrasiya) və AMEA-nın birgə əməkdaşlığı ilə gerçəkləşən layihə Bakı və Sumqayıt şəhərlərində reallaşan silsilə tədbirləri əhatə edir. Layihənin əsas ideyası Türkiyə və Azərbaycanın iki böyük şairinin timsalında ədəbi, mədəni, milli əlaqələrin tarixinə, inkişafına nəzər salmaq və bu yöndə qarşıda duran əsas vəzifələri müzakirə etməkdir.

AMEA-da keçirilən paneldə də bu məsələlər önə çəkildi. Müzakirələr "Mehmet Akif Ərsoyun həyatı, "İstiqlal marşı" və hekayəsi" və "Bəxtiyar Vahabzadənin həyatı, azadlıq mübarizəsi və Vətən eşqi" başlıqlı iki sessiyada aparıldı.

AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli tədbiri açaraq Azərbaycan-Türkiyə dostluğu və qardaşlığının dünyaya örnək olmasından danışdı. Bildirdi ki, "İki dövlət, bir millət" ideyası, onun yaşadılması və bu örnək fikrə sübut olan münasibətlər hər iki dövlətin inkişafı üçün böyük önəm kəsb edir. Akademik iki istiqlal şairinin ədəbiyyata verdiyi töhfələrdən, milli fikir, ədəbi zənginlik baxımından müstəsna xidmətlərindən də söz açdı, onların ədəbi irsinin daim təbliğinə ehtiyac olduğunu dilə gətirdi.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral iki ölkənin bütün sahələrdə əlaqələrinin yüksələn xətlə inkişaf etməsindən, bu əbədi dostluq və qardaşlığın dərin köklərindən bəhs etdi. O, sovet dönəmində də iki ölkənin ədəbi əlaqələrinin bütün çətinliklərə rəğmən kəsilmədiyini, məhz azadlıq ideallarının tərənnümçüləri olan şeir, sənət təmsilçiləri sayəsində davam etdiyini dedi.

Digər çıxışçılar – türkiyəli millət vəkilləri Necdet Ünüvar, Şamil Ayrım, EkoAvrasiya dərnəyinin rəhbəri Hikmət Ərən, Mehmet Akif Ərsoyun nəvəsi Selma Ersoy və başqaları daim sevgi və ehtiramla yad olunan Mehmet Akif Ərsoyun və Bəxtiyar Vahabzadənin irsindən söz açdılar.



Tədbirin davamı olaraq Sumqayıt şəhərində "Şeirlər və türkülər türkü söyləyir" adlı proqram da keçirilib. Hər iki şairin əbədiyaşar misralarının – Vətən, bayraq kimi müqəddəs dəyərlərimizdən bəhs edən şeirləri, musiqilər səslənib.

Tədbirin ikinci günü, mayın 3-də Xəzər Universitetində "Türkiyə-Azərbaycan könül körpüsü" başlığı altında "Gənclik görüşləri" adlı proqram keçiriləcək.

**HƏMİDƏ**

## Milli Kitabxanada İsi Məlikzadənin 85 illiyi ilə bağlı sərgi

Mayın 1-də M.F.Axundzadə adına Milli Kitabxanada tanınmış yazıçı-dramaturq, ssenarist İsi Məlikzadənin (1934-1995) anadan olmasının 85 illiyi münasibətilə kitab sərgisi açılıb.




Bir həftə davam edəcək sərgidə yazıçının Azərbaycan və xarici dillərdə nəşr olunmuş əsərləri, redaktoru olduğu, haqqında yazılmış kitablar və dövri mətbuat materialları nümayiş olunur.

İsi Məlikzadənin özünəməxsus bədii siqləti ilə seçilən əsərləri həmişə oxucular tərəfindən maraqla qarşılanıb. Müəllifin bir sıra əsərləri və ssenariləri əsasında filmlər ("Qoca palıdın nağılı", "Kişi sözü", "Gümüşgöl əfsanəsi", "Pəncərə", "Küçələrə su səpmişəm") və teletamaşa ("Qatarda") çəkilib.

## Muzeydə Hacıbaba Hüseynova həsr olunmuş xatirə axşamı

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində mayın 2-də keçirilən növbəti xatirə tədbiri ustad xanəndə, Xalq artisti Hacıbaba Hüseynovun 100 illik yubileyinə həsr edilib.

Tədbiri muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova giriş sözü ilə açıb.

Sonra Xalq çalğı alətləri şöbəsinin müdiri Təranə Zeynalova Hacıbaba Hüseynovun yaradıcılıq yolu, Azərbaycan milli musiqi mədəniyyətinin inkişafında xidmətləri haqqında danışıb. Onun çıxışı muzeyin arxiv materialları əsasında hazırlanmış slayd-şou ilə müşayiət olunub.



Xalq artisti, tarzən Vamiq Məmmədəliyev, Əməkdar artist, kamança ifaçısı Mirnazim Əsədullayev, Hacıbaba Hüseynovun yetirməsi olan xanəndə Saleh Novruzlu çıxışlarında sənətkarın musiqi tariximizdə yerindən, muğam ifaçılıq sənəti ənənələrinin yaşadılmasında rolundan bəhs ediblər, məşhur xanəndələr nəslinin yetişdirilməsində səmərəli pedaqoji fəaliyyəti barədə danışıblar.

Bədii hissədə Vamiq Məmmədəliyev (tar), Mirnazim Əsədullayev (kamança), muzeyin Qədim musiqi alətləri ansamblı və solist – Əməkdar artist Nuriyyə Hüseynova və xanəndələr Saleh Novruzlu, Hüseyn Məlikovun ifalarında konsert proqramı təqdim olunub. Görkəmli sənətkarın yaradıcılıq yolundan bəhs edən "Ocaq başı" sənədli filmindən parçalar nümayiş etdirilib.

Sonda Hacıbaba Hüseynovun bacısı oğlu, teatrşünas, Əməkdar incəsənət xadimi Aydın Talıbzadə ailəsi adından çıxış edərək tədbirin təşkilinə görə muzeyə təşəkkürünü bildirib.

**SAVALAN**

## Balaca rəsm həvəskarlarının ilk yaradıcılıq hesabatı



Bakıdakı "Qalereya 1969" sərgi salonunda Heydər Əliyev adına Müasir Təhsil Kompleksi şagirdlərinin əl işləri nümayiş olunur.

Sərgini sənətşünaslıq doktoru, professor Telman İbrahimov açıb. O, ilk yaradıcılıq hesabatlarını təqdim edən iştirakçıları təbrik edərək onlara uğurlar arzulayıb.

Müasir Təhsil Kompleksinin direktoru Aygün Mikayılova qeyd edib ki, sərgi ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş silsilə tədbirlərdəndir. Bildirib ki, sərginin ekspozisiyasına müxtəlif texnikalarda – yağlı boya, karandaş, sulu boya, flomaster, strinq-art, tikmə, ağac üzərində yandırma üsulu ilə işlənmiş 150-dək əl işi daxil edilib.

A.Mikayılova balaca rəssamların müəllimlərinə - Kamilə Muradovaya, Vüqar Əliyevə, Səadət Əbdülsəlimzadəyə, Söhrab Hüseynova, həmçinin sərginin təşkilatçılarına minnətdarlığını bildirib.

Sonra sərgi ilə tanışlıq olub. Uşaqlar öz əl işləri vasitəsilə sevimli nağıl və cizgi filmlərindən, ətraf mühitdə onları təəccübləndirən və sevindirən hər şeydən aldıqları təəssüratları əks etdirməyə çalışıblar.

## Dirijor soydaşımızın Meksikada böyük uğuru

Əməkdar incəsənət xadimi, tanınmış dirijor Elşad Bağırov Meksikanın paytaxtı Mexiko şəhərində dünya şöhrətli ingilis rəqqas Anton Dolin adına Fondun keçirdiyi festivalda böyük uğura imza atıb.



Sənətkar soydaşımız təkcə Mexikonun deyil, həm də dünyanın ən gözəl teatrlarından biri olan Zərif Sənətlər Sarayında festival çərçivəsində oynanılacaq A.Adanın "Jizel" baletinin premyerasına dirijorluq məqsədilə okeanın o tayına dəvət alıbmış. Aprelin 25-də premyerası oynanılan balet Meksika Milli Baletinin təfsirində təqdim edilib. Bir neçə gün ardıcıl - premyeradan sonra 27-si, 28-i və 29-da təkrar göstərilən "Jizel"in hər nümayişi anşlaqla keçib və baletsevərlərin böyük rəğbətini qazanıb.

Paytaxtın musiqi ictimaiyyəti tamaşanın musiqi materialı üzərində qısa müddət işləyərək orkestr və səhnədəki solistlərin unison çıxışına nail olmağı bacaran E.Bağırovu "musiqi sehrkarı" adlandırıb.

A.Dolin adına Fondun təşkilatçılığı ilə keçirilən nüfuzlu balet festivalında baş tutan bu premyeranı yerli baletsevərlər və festival iştirakçıları ilə yanaşı, tanınmış mədəniyyət xadimləri, Mexikoda yaşayan həmvətənlərimiz, Azərbaycanın Meksikadakı səfiri Məmməd Talıbov seyr ediblər.

Məlumat üçün qeyd edək ki, A.Dolin adına Fond klassik balet repertuarının qorunması məqsədilə yaradılıb.

## Gənclər arasında estrada-vokal müsabiqəsinin yekun konserti

Azərbaycan Milli Konservatoriyasında (AMK) istedadlı gənclərin estrada-vokal müsabiqəsinin yekun konserti keçirilib.

Konsert Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi, Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (TGTİ) və konservatoriyanın Tələbə gənclər təşkilatının birgə təşkilatçılığı ilə reallaşıb.

Konsertdən öncə layihənin rəhbəri Riad Cəbrayılov müsabiqə haqqında məlumat verib. Bildirib ki, ötən ilin dekabr ayından start götürən müsabiqə üç mərhələdən ibarət olub. İlk mərhələdə 100-dən çox iştirakçı qeydiyyata alınıb. Daha sonra ən yaxşı 30 iştirakçı müsabiqənin ikinci turunda çıxış edib. 14 ali təhsil müəssisəsində oxuyan ən yaxşı 16 iştirakçı müsabiqənin finalına – qala-konsertə vəsiqə qazanıb.

R.Cəbrayılov layihənin ərsəyə gəlməsində dəstək göstərən bütün qurumlara təşəkkürünü bildirib.

Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Kənan Sadıqov layihənin əhəmiyyətini yüksək qiymətləndirib, bu qəbildən müsabiqələrin operativlik, böyük məsuliyyət tələb etdiyini vurğulayıb.

Daha sonra konsert proqramı təqdim olunub. 16 nəfər gənc və istedadlı finalçının ifaları maraqla qarşılanıb.

Münsiflər heyətinin qərarına əsasən, müsabiqədə vokal üzrə Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Rauf Məmmədzadə birinci yerə, Anadolu Universitetinin (Türkiyə) tələbəsi Elçin Əliyev ikinci yerə, Azərbaycan Dillər Universitetinin tələbəsi Şahverən Babayev üçüncü yerə layiq görülüb. Estrada janrı üzrə ADA Universitetinin tələbəsi Kənan Əzimov birinci, Azərbaycan Turizm və Menecment Universitetinin tələbəsi Nadir Rüstəmli ikinci, Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin tələbəsi Mədinə Mirzəyeva üçüncü olub.

Sonda qaliblərə sertifikat və diplomlar təqdim edilib.



## Azərbaycan təmsilçisi beynəlxalq müsabiqənin baş mükafatına layiq görülüb

Qazaxıstanın Aktau şəhərində türkdilli ölkələrdən ifaçıların iştirakı ilə beynəlxalq musiqi festivalı keçirilib. 26-29 aprel tarixində gerçəkləşən festivalda ölkəmizi təmsil edən tarzən Ayaz İmranov müsabiqənin Qran-pri mükafatına layiq görülüb.

Azərbaycan təmsilçisi iki turdan ibarət müsabiqənin hər iki turunun ən güclüsü hesab edilib. O, birinci turda Azərbaycan xalq rəqsi "Lalə" və qazax musiqisi "Dayrabay"ı , ikinci turda isə xalq rəqsimiz "Qazağı" və qazax musiqisi "Balburayın"ı yüksək səviyyədə ifa edərək baş mükafata sahib olub.



Müsabiqə ilə bağlı açıqlama verən A.İmranov bildirib ki, festival türk xalqları arasında keçirilsə də, tədbirə İndoneziya və digər Uzaq Şərq ölkələrindən də musiqiçilər qatılıb: "Mənim üçün çox sevindiricidir ki, belə bir mötəbər müsabiqədə iştirak etdim və Qran-pri mükafatını ölkəmizə gətirməyə nail oldum. Müsabiqədə iştirakıma şərait yaradan Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kərimiyə, eləcə də Mədəniyyət Nazirliyinə təşəkkürümü bildirirəm".

Tarzən əldə etdiyi uğuru bütövlükdə Azərbaycan milli musiqisinin zəfəri kimi səciyyələndirib: "Festivalda bir daha musiqimizin, milli musiqi alətimiz olan tarın müxtəlif ölkələrdən gələn çoxsaylı izləyiciləri necə ovsunladığının, onları necə heyrətləndirdiyinin şahidi oldum. Bu, olduqca qürurverici bir mənzərə idi. Belə festivallar musiqi mədəniyyətimizin təbliği ilə yanaşı, bütövlükdə türk dünyasında mədəni əlaqələrin inkişafına mühüm töhfədir".

# Gənc pianoçuların müsabiqəsi keçiriləcək

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə iyunun 1-dən 6-dək Bakıda "Caspian etude" I Beynəlxalq Gənc Pianoçular Müsabiqəsi keçiriləcək.

Baş idarədən bildirilib ki, müsabiqə Azərbaycan bəstəkarlarının yaradıcı irsini, musiqisini tanıtmaq, gənc, istedadlı musiqiçiləri aşkar etmək və dəstəkləmək, aparıcı müəllimlərin yenilikçi ideyalarının və təcrübələrinin mübadiləsi, həmçinin iştirakçı ölkələr arasında beynəlxalq mədəni əlaqələrin möhkəmləndirilməsi məqsədi daşıyır.

Layihə gənc musiqiçilərin fərdi yaradıcılığının inkişafını, konsert və pedaqoji repertuarlarının dünyada məşhur olan ən yaxşı klassik musiqi nümunələri ilə zənginləşməsini təşviq edəcək.

Müsabiqəyə musiqi və incəsənət məktəbləri, ixtisaslaşmış musiqi təhsili müəssisələri və musiqi kolleclərinin tələbələri dəvət olunurlar. Müsabiqə 16 yaşına qədər iştirakçılar arasında dörd yaş kateqoriyasında keçiriləcək.

Şərtlər haqqında ətraflı məlumatla beynəlxalq müsabiqənin internet səhifəsindən (http://www.caspianetude.az/) tanış olmaq olar.

# "İlahi nitqin tərcümanı"



Aprelin 30-da Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasında böyük Azərbaycan şairi, mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş "İlahi nitqin tərcümanı" adlı tədbir keçirilib.

Kitabxana əməkdaşları və təcrübəçi tələbələrin təqdimatında Nəsimi yaradıcılığından "Ayrılır", "Mənəm, mən", "Neylərəm", "Ağrımaz" və "Sığmazam" qəzəlləri səslənib, həmçinin "Nəsimi" filmindən fraqmentlər və qəzəlləri əsasında hazırlanmış kompozisiya nümayiş olunub.

Tədbirdə Nəsiminin həyat və yaradıcılığından söhbət açılıb, onun Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustadı olduğu və Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalaraq bədii söz sənətinin qiymətli incilərini yaratdığı vurğulanıb. Tədbirin sonunda diskussiya keçirilib.

# "Culture Guide" mədəniyyət bələdçisinin növbəti sayı çapdan çıxıb

May ayı ölkəmizin mədəni həyatında çoxsaylı tədbirlər, müxtəlif incəsənət layihələri, eyni zamanda bir sıra tarixi günlər, həm əlamətdar, həm də nisgil ilə yada salınan ildönümləri ilə zəngindir.







Ölkəmizə təşrif buyuran qonaqlara Azərbaycanın tarixi, mədəni irsi, zəngin incəsənəti, müasir mədəniyyəti, sənət ocaqlarının fəaliyyəti, eləcə də bölgələrimizin mədəni palitrası barədə dolğun məlumat vermək, onların ölkəmiz barədə təəssüratını yaddaqalan etmək təbliğat baxımından xüsusi önəm kəsb edir. Aprel ayından nəşrə başlayan "Culture Guide" ("Mədəniyyət bələdçisi") kataloqu da bu məramla yaradılıb. "Baku Guide" MMC tərəfindən ingilis və rus dillərində hazırlanaraq nəşr edilən kataloqun may ayı buraxılışı çapdan çıxıb.

Xatırladaq ki, "Baku Guide" markası altında daha öncə eyniadlı turistik jurnal-kataloq nəşr edilirdi. "Baku Guide"ın yeni nəşri – "Culture Guide" isə ingilis və rusdilli oxuculara mədəniyyətimizin bələdçiliyini edir.

Nəşr Azərbaycan haqqında, ölkəmizin keçmişi və müasir inkişafı, mədəniyyətimizin tarixi mənzərəsi ilə bağlı təqdimat yazısı ilə açılır. 28 May – Respublika Günü haqqında yazıda 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin müsəlman Şərqində birinci respublika olduğu diqqətə çatdırılır, Cümhuriyyətin tarixi və bu gün də yaşadılan dəyərlərindən bəhs edilir. Kataloqda həmçinin Azərbaycanın müsəlman Şərqində ilk peşəkar teatrın, kinematoqrafın, operanın yarandığı ölkə olduğu, Orta əsrlərdən Nizami, Nəsimi, Füzuli kimi şair-mütəfəkkirləri ilə tanındığı, 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan olunduğu vurğulanır.

Bu ay ölkəmizin həyatında mədəniyyət, eləcə də beynəlxalq maraq baxımından ən böyük tədbir 2-3 may tarixində Bakıda keçirilən 5-ci Dünya Mədəniyyətlərarası Dialoq Forumudur. Nəşrdə dünyanın 100-dən çox ölkəsinin, 30-dək beynəlxalq təşkilatın təmsil olunduğu "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" mövzulu Forum haqqında ətraflı məlumat verilir.

May ayı təqvimdə həm də Azərbaycanın dilbər guşələrinin – Şuşanın, Laçının Ermənistan tərəfindən işğal olunduğu günlərlə xatırlanır. "Qarabağ – Azərbaycanın mədəniyyət beşiyi" adlı yazıda əzəli yurd yerimizin mədəni, ədəbi və sənət irsi haqqında söz açılır, işğal altındakı torpaqlarımızda xalqımızın mədəni sərvətinin dağıdılıb-talan edildiyi əcnəbi oxucuların diqqətinə çatdırılır.

18 may Beynəlxalq Muzeylər Günüdür. UNESCO yanında Beynəlxalq Muzeylər Şurasının təşəbbüsü ilə 1977-ci ildə təsis olunan bu gün hər il ölkəmizdə də qeyd olunur. Bu mövzuya dair yazıda Azərbaycanda muzeylərin təşəkkül tarixindən və müasir inkişafından bəhs edilir. Kataloqun bir bölümü həmçinin Bakı şəhərində fəaliyyət göstərən muzeylərə həsr olunub.

"Culture Guide"ın oxucularına Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının davam etməsi barədə də məlumat verilir, festivalın may ayında hansı rayon və şəhərlərdə gerçəkləşəcəyi diqqətə çatdırılır.

Mədəniyyət bələdçisinin əsas məqsədlərindən biri Bakının mədəniyyət məkanlarının fəaliyyəti, aylıq repertuar və tədbirləri barədə şəhərin qonaqlarına məlumat verməkdir. Nəşrin yeni buraxılışında paytaxtdakı teatrlar, konsert məkanları, muzeylər, kino və sərgi zallarının may ayı üzrə afişası ilə yanaşı, hər bir mədəniyyət ocağı, onların yerləşdiyi tarixi binalar haqqında informasiya, ünvan və telefon nömrələri, eləcə də Azərbaycan Milli Kitabxanası, Gənclər və Uşaq kitabxanaları, Bakı Kitab Mərkəzi haqqında məlumat verilir.

Nəşrdə Bakının tarixi və müasir memarlıq nümunələri, İçərişəhər, minilliklərin daş yaddaşı olan Qobustan qoruğundan da söz açılır. Nəfis tərtibatda hazırlanan mədəniyyət bələdçisinin üz qabığında və ilk səhifəsində verilən Xalq rəssamı Toğrul Nərimanbəyovun məşhur əsərlərinin reproduksiyaları isə həm də təsviri sənətimizin bir təqdimatıdır.

# Onun bəstələrini görkəmli müğənnilər ifa etmişdi...

Əməkdar incəsənət xadimi, bəstəkar və pedaqoq Ədilə Hüseynzadə dahi Üzeyir Hacıbəyli məktəbinin tanınmış nümayəndələrindəndir. O, kamera musiqisinin inkişafında mühüm rol oynayıb, sevilən nəğmələr bəstələyib.

Ədilə Hacağa qızı Hüseynzadə 28 aprel 1916-cı ildə Bakıda dünyaya göz açıb. Altı yaşında valideynləri onu yeddiillik musiqi məktəbinə qoyur. Orta məktəbdə dəqiq elmlərə də hədsiz maraq göstərən Ədilə əvvəlcə N.Nərimanov adına Sənaye Texnikumunda oxuyur. Sonra Sənaye İnstitutunda (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) mühəndis-texnoloq peşəsinə yiyələnsə də, musiqiyə olan marağı heç vaxt azalmır. Tale onu təsadüfən Üzeyir Hacıbəyli ilə görüşdürür və bu tanışlıq onu qəlbinin dərinliklərində yaşatdığı arzusuna bir qədər də yaxınlaşdırır.

1930-cu illərin repressiya dalğası Ədilə Hüseynzadənin də ailəsindən yan keçmir. Doğmaları İrana sürgün edilir. O, körpə uşaqlı olduğu üçün Bakıda qalır. Üzeyir bəy ona ata qayğısı göstərir, çətinlikləri dəf etməkdə yardımçı olur. 1942-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına, Üzeyir bəyin yanına gələn Ə.Hüseynzadə musiqiçi olmaq istədiyini bildirir. Müəyyən dinləmələrdən sonra onun gözəl soprano səsinin olduğu aşkara çıxır. Konservatoriyanın vokal şöbəsinə qəbul edilir. Ancaq bəstəkar olmaq istəyi onu rahat buraxmır. Sonralar o günləri belə xatırlayır: "Bir gün Üzeyir Hacıbəylinin yanında bəstəboy, qarayanız bir qız gördüm və onunla maraqlandım. Dedilər ki, bəs Ağabacı Rzayevadır. Üzeyir bəydən bəstəkarlıq dərsi alır. Əvvəl təəccüb etdim. Düşündüm ki, qızdan da bəstəkar olar? Sonra özümü də bu sahədə sınamaq qərarına gəldim... Şair Soltanın "Yadigar" şeirinə musiqi bəstələdim. Bir gün bu romansı sevimli müəllimimə göstərdim. Çox bəyəndiyini söylədi. Elə o gündən də məni bəstəkarlıq şöbəsinə keçirdi".



1945-ci ildə Üzeyir bəyin "Arşın mal alan" operettası ekranlaşdırılır və Ədilə xanım böyük bəstəkarın təklifi ilə Asyanın partiyasını səsləndirir. Filmin musiqi redaktoru maestro Niyazi onun ifasını bəyənir və səsi lentə alınır.

Bu uğurlardan ilhamlanan musiqiçi çox keçmir Üzeyir bəyin təşəbbüsü ilə dahi Nizami Gəncəvinin 800 illik yubileyi münasibətilə "Vəslin həvəsi" romansını bəstələyir. Romans ilk dəfə böyük xanəndə Bülbül tərəfindən ifa olunur.

1948-ci ildə Üzeyir bəy vəfat edir, Ədilə xanım Boris Zeydmanın sinfinə keçirilir. 1953-cü ildə konservatoriyanı müvəffəqiyyətlə başa vuraraq təyinatla indiki Bülbül adına Orta ixtisas musiqi məktəbinə göndərilir.

Onu da deyək ki, bir müddət ailə qayğıları ilə bağlı yaradıcılıqdan uzaqlaşan musiqiçi qəzetdə Rəsul Rzanın "Yaşamaq" şeirini oxuyur. Bu onun yazıb-yaratmaq həvəsini alovlandırır. 1970-1971-ci illərdə görkəmli şairin "Yaşamaq", "Mənim arzum", "Soruşuram sevincdən" şeirlərinə romanslar bəstələyir. Sonra bu əsərləri "Duyğular" vokal silsiləsinə daxil edir. Bəstəkarın 60-dan çox vokal əsərini Bülbül, Sona Aslanova, Firəngiz Əhmədova, Lütfiyar İmanov, Şövkət Ələkbərova, Rəhilə Cabbarova və başqaları ifa edib. Ədilə Hüseynzadə bəstəkarlıq sənətinin inkişafında xidmətlərinə görə 1982-ci ildə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülür. Xalq artisti Tofiq Quliyev bu münasibətlə ona təbrik məktubunda yazırdı: "Sizin istedadlı yaradıcılığınız son onillikdə çiçək açmış və Azərbaycan kamera musiqisində əhəmiyyətli hadisə olmuşdur. Sizə yaradıcılığınızda daha böyük müvəffəqiyyətlər, möhkəm cansağlığı və bir qədər az təvazökarlıq arzu edirəm".

Sənətkar müxtəlif janrlarda bir-birindən gözəl əsərlər yaradıb. Səməd Vurğunun sözlərinə bəstələdiyi xor və simfonik orkestr üçün "Gözəl vətən", Tofiq Mütəllibovun şeirinə yazdığı "Sülhün səsi" kantataları, "Oğlumun babasına" balladası, dördhissəli simli kvarteti, violonçel və fortepiano, xor və kamera-instrumental əsərləri müxtəlif ölkələrin mədəniyyət tədbirlərində ifa edilərək yüksək qiymətləndirilib.

Daha çox romans və mahnılar müəllifi kimi tanınan Ədilə Hüseynzadənin "Bülbül", "Qarayazı meşəsində", "Bir səs", "Yaşamaq" və s. mahnıları bu gün də sənətçilərimiz tərəfindən həvəslə oxunur və musiqisevərlərin rəğbətini qazanır.

Görkəmli sənətkar 20 iyul 2005-ci ildə vəfat edib.

**Savalan FƏRƏCOV**

## Xatirə təqvimi — 4-6 may

### Azərbaycan

**4 may 1920** - Aşıq, şair Molla Cümə (1854-1920) vəfat edib.

**5 may 1856** – Azərbaycanın ilk maarifçi qadınlarından biri, milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin ömür-gün yoldaşı Hənifə Məlikova-Abayeva (1856-1929) Şimali Qafqazın Nalçik şəhərində (Kabarda-Balkar vilayəti) anadan olub.

**5 may 1866** – Yazıçı-dramaturq, şair, tərcüməçi, teatr xadimi Eynəli bəy Çölübəy oğlu Sultanov (1866-1935) Naxçıvanda anadan olub.

**5 may 1892** - İstiqlal şairi Əhməd Cavad (Cavad Məhəmmədəli oğlu Axundzadə; 1892-1937) Şəmkir bölgəsinin Seyfəli kəndində doğulub. Dövlət himnimizin ("Azərbaycan marşı", 1918) sözlərinin müəllifidir.

**5 may 1905** – Tanınmış ədəbiyyatşünas, şair, tərcüməçi Əkrəm Cəfər (Əkrəm Səftər oğlu Cəfərov; 1905 - 18.8.1991) İsmayıllı rayonunun Lahıc kəndində anadan olub.

**5 may 1908** - İlk azərbaycanlı qadın rejissor Qəmər Əliqulu qızı Salamzadə (1908-1994) anadan olub.

**5 may 1910** – SSRİ Xalq artisti, rejissor, aktyor və pedaqoq Adil Rza oğlu İsgəndərov (1910 - 18.9.1978) anadan olub. Milli Dram Teatrının baş rejissoru, "Azərbaycanfilm"in direktoru işləyib. Filmlərdə yaddaqalan obrazlar yaradıb. "Əhməd haradadır?" filminə quruluş verib.

**5 may 1912** - Nasir, tərcüməçi Cəfər Bağır (Cəfər Səfər oğlu Bağırov; 1912 - 17.4.1983) Ordubad rayonunun Dəstə kəndində anadan olub.

**5 may 1918** - Görkəmli ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, Əməkdar elm xadimi Mirəli Seyidov (1918 – 26.4.1992) İrəvanda doğulub.

**5 may 1922** – Xalq artisti Ələddin Aslan oğlu Abbasov (1922 – 13.7.2014) Gəncədə doğulub. "Dəli Kür", "Qatır Məmməd", "Nizami", "Qətl günü", "Özgə vaxt" və s. filmlərə çəkilib.

**5 may 1930** - Xanəndə, Xalq artisti Yaqub Məhəmməd oğlu Məmmədov (1930 -5.7.2002) Ağcabədi rayonunda anadan olub.

**6 may 1941** – Tanınmış aktyor Kamil Məhərrəmov (1941-1993) Şamaxıda doğulub. "Dərviş Parisi partladır", "Yol əhvalatı" və s. filmlərdə yaddaqalan rollar oynayıb.

### Dünya

**4 may 1929** - İngilis aktrisası Odri Hepbern (Odri Ketlin Raston; 1929-1993) anadan olub. Filmləri: "Roma tətilləri" (şahzadə Anna), "Hərb və sülh" (Nataşa Rostova) və s.

**5 may 1846** - Polyak yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1905) laureatı Henrik Senkeviç (1846-1916) anadan olub. Əsərləri: "Quo Vadis" ("Hara gedirsən?"), "Girdab", "Polonetskilər ailəsi" və s.

**6 may 1856** - Dünya ədəbiyyatı və mədəniyyətində iz qoymuş psixoanaliz nəzəriyyəsinin banisi, Avstriya alimi Ziqmund Freyd (Sigmund Freud; 1856-1939) anadan olub. Əsərləri: "Yuxuların yozulması", "Totem və tabu", "Bir illüziyanın gələcəyi" və s.

**6 may 1867** - Polyak yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1924) Vladislav Reymont (1867-1925) anadan olub. "Kişilər" romanı, "1794" tarixi trilogiyası və s. əsərlərin müəllifidir.

**6 may 1922** – SSRİ Xalq artisti Vladimir Abramoviç Etuş (1922 – 9.3.2019) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

## AFİŞA — 4-7 may

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı (Nizami küç. 95)**

| | | |
|---|---|---|
| 5 may | İvan Abramovun solo konserti - "Stand up Brand new show" | 19.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Füzuli meydanı 1)**

| | | |
|---|---|---|
| 4 may | M.F.Axundzadə - "Sərgüzəşti-vəziri-xani-Lənkəran" | 12.00 |
| | V.Şekspir - "12 -ci gecə və ya hər nə istəsəniz..." | 19.00 |
| 5 may | C.Rodari - "Çipollino" | 12.00 |
| | Elçin - "Cəhənnəm sakinləri" | 19.00 |

**Azərbaycan Dövlət Akademik Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 4 may | R.Ağababayev, A.Sent Ekzüperi - "Balaca şahzadə" | 12.00<br>15.00 |
| 5 may | H.K.Andersen - "Düyməcik" (rus dilində) | 12.00 |
| | E.Sabitoğlu, T.Vəliyeva - "Bankir adaxlı" | 19.00 |

**Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı (Xaqani küç. 7)**

| | | |
|---|---|---|
| 4 may | V.Neverov – "Üç donuz balası, Qırmızıpapaq və boz canavarlar" | 12.00 |
| | Berqman – "Payız sonatası" | 19.00 |
| 5 may | V.Reznikova – "Durna balığının əmri ilə" | 12.00 |
| | N.Qoqol - "Evlənmə" | 19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı (Nizami küç. 72)**

| | | |
|---|---|---|
| 4 may | Azərbaycan xalq nağılı - "Tənbəl Əhməd" | 10.00, 12.00, 14.00 |
| 5 may | Y.Entin, V.Livanov - "Bremen musiqiçiləri" (rus dilində) | 10.00, 12.00, 14.00, 16.00 |
| 6 may | "Caspian Breeze" musiqi festivalı | 19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | | |
|---|---|---|
| 4 may | Ş.Perro - "Qırmızıpapaq" | 12.00, 14.00, 16.00 |
| | Rus xalq nağılı - "Maşa və Ayı"(rus dilində) | 18.00 |
| 5 may | A.Şaiq - "Tıq-tıq və Taq-taqın nağılı" | 12.00, 14.00, 16.00 |
| | Rus xalq nağılı - "Durna balığı" (rus dilində) | 18.00 |

**Yuğ Dövlət Teatrı (Neftçilər pr. 36 - Kukla teatrının binası)**

| | | |
|---|---|---|
| 4 may | A.Klim - "Medeya Sekvensiya-001" | 19.00 |
| 5 may | S.Haqverdiyeva - "Metamorfoza" | 19.00 |

**Azərbaycan Dövlət Pantomima Teatrı (Azadlıq pr. 10)**

| | | |
|---|---|---|
| 4 may | B.Xanızadə - "Adajio" | 18.00 |
| 5 may | B.Xanızadə - "Fəlakət və insan" | 14.00 |
| | N.Qəribova, C.Dadaşov - "Katarsis" | 18.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küç. 2)**

| | | |
|---|---|---|
| 4 may | Bəstəkar Ramiz Mirişlinin 85 illiyinə həsr olunmuş yubiley gecəsi. Ü.Hacıbəyli adına Dövlət Simfonik Orkestri (dirijor Mustafa Mehmandarov) | 19.00 |
| 7 may | Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri (dirijor Ağaverdi Paşayev) | 19.00 |

**Beynəlxalq Muğam Mərkəzi (Dənizkənarı Milli Park)**

| | | |
|---|---|---|
| 7, 9 may | Muğam Televiziya Müsabiqəsi - 2019 | 21.00 |

**Dövlət Mahnı Teatrı (R.Behbudov küç. 12)**

| | | |
|---|---|---|
| 6 may | Asəf Zeynallı adına Musiqi Kollecinin konserti | 15.00 |



# "Azərbaycanı çox sevirəm..."

## Rusiyanın məşhur müğənnisi Aleksandr Serov Bakıda konsert verib



Heydər Əliyev Mərkəzində Rusiyanın Xalq artisti, məşhur müğənni Aleksandr Serovun solo konserti olub. Konsertdə müğənninin həm populyar hitləri, həm də yeni kompozisiyaları səslənib. Bundan başqa, Aleksandr Serov Müslüm Maqomayev, Tom Cons və digər dünya şöhrətli müğənnilərin repertuarından mahnıları ifa edib.

Konsertdə Rusiyanın Əməkdar artisti Aleksandr Fedorkov və gənc ifaçılar – beynəlxalq müsabiqələr laureatları Dmitri Pryanov və Yuliya Kalina da çıxış ediblər.

Aleksandr Serov 1954-cü ildə anadan olub. Virtuoz müğənni, instrumental ifaçı, şair, bəstəkar və aranjimançıdır. O, ötən əsrin 80-ci illərində məşhurlaşıb, sevgi mahnıları ilə qəlbləri fəth edib. Aleksandr Serov 40 ildən artıq yaradıcılığı ərzində müxtəlif albomlar yazdırıb. Onun bir çox məşhur mahnılarının bəstəkarı İqor Krutoy olub.

O, Almaniya, Kanada, İsrail və s. ölkələrdə qastrollarda olub. Müğənninin anşlaqla keçən hər bir konsertində publika onun ifasını zövqlə dinləyir.

Bakı konserti böyük maraq və musiqisevərlərin sürəkli alqışları ilə qarşılanıb. Sonda Aleksandr Serov bakılı tamaşaçılara səmimi qonaqpərvərliyə görə minnətdarlıq edib.

"Mən Azərbaycanı çox sevirəm. Bu ölkə dünyaya Müslüm Maqomayev, Rəşid Behbudov, Polad Bülbüloğlu kimi istedadlarımız, digər görkəmli insanları bəxş edib.

Ölkənizin paytaxtı Bakı haqqında danışmaqla qurtarmaz. Bu, MDB-nin ən gözəl və qonaqpərvər şəhərlərindən biridir".

Aleksandr Serov bu fikirləri Heydər Əliyev Mərkəzində solo konsertindən sonra jurnalistlərə müsahibəsində söyləyib.

Müğənni daha sonra deyib: "Mənim mahnılarımın əksəriyyəti sevgi haqqındadır, çünki mən təbiətən romantik adamam. Bu mahnıları ifa etməkdən böyük məmnunluq duyuram. Şadam ki, uzun illər boyu insanlar mənim yaradıcılığımı qiymətləndirirlər".



# "Eurovision 2019" təmsilçimizin səhnə komandası

İsrailin Təl-Əviv şəhərində "Eurovision 2019" mahnı müsabiqəsində Azərbaycanı təmsil edəcək müğənni Çingiz Mustafayevin beş bek-vokalçısı olacaq.



Pernille Leeloo bu il Danimarkanın milli seçimləri olan "Dansk Melodi Grand Prix"ə qatılıb. Digər bek-vokalçı Sara Linnea 2012-ci ildə "Melodifestivalen"in finalına qədər yüksəlib. Peter Simpson isə "Eurovision 2018"də Avstriya təmsilçisi ilə birgə çalışıb. İfaçı və bəstəkarlar Patrik Jean və Cedrik Hammar Azərbaycan təmsilçisinin oxuyacağı "Truth" ("Həqiqət") mahnısına həyat verməyə və onu insanlarla bölüşməyə kömək edəcəklər.

"Mən çox xoşbəxtəm ki, bu cür istedadlı və peşəkar insanlar Təl-Əvivdəki çıxışım üçün bizim komandaya qoşulublar. Musiqi prodüserimiz İsa Məlikov və ifaçılıq müəllimi Aleks Panayi, eləcə də "Truth" mahnısının müəllifi Borislav Milanovla birlikdə biz bir çox ifaçıların profilini nəzərdən keçirdik ki, komandamıza qoşulacaq şəxsləri seçək. Əminik ki, komandamıza öz şəxsi toxunuşlarını gətirəcək və çıxışımızı daha rəngarəng edəcək səsləri seçmişik. İlk məşqimiz çox əla keçib və komandamızda çox gözəl harmoniya var", - deyə Çingiz Mustafayev bek-vokalçıları haqqında fikirlərini bölüşüb.

Qeyd edək ki, Azərbaycan təmsilçisi mayın 16-da "Eurovision 2019" mahnı müsabiqəsinin ikinci yarımfinalında 18-ci nömrə altında səhnəyə çıxacaq.

# Azərbaycanın tanıtım brendi beynəlxalq nəşrin mükafatlarını qazanıb

Azərbaycanın yeni turizm tanıtım brendi "Transform" jurnalı tərəfindən hər il təşkil olunan mükafatlandırma mərasimində bir neçə nominasiya üzrə qalib elan olunub.




Dövlət Turizm Agentliyindən bildirilib ki, "Landor" şirkəti tərəfindən hazırlanan brend "Brend stilinin (hədəf kütlə ilə ünsiyyətin) ən yaxşı istifadəsi", "Ən yaxşı məkan brendi və ya milli brend", "Səyahət, istirahət və turizm sahəsi üzrə ən yaxşı vizual görüntü" nominasiyaları üzrə qızıl, "Vizuallığın ən yaxşı istifadəsi" nominasiyası üzrə bürünc mükafatı qazanıb.

Məlumat üçün bildirək ki, "Transform" jurnalı brend yaradılması və rebrendinq üzrə yeniliklərin paylaşıldığı, dünya üzrə bütün sahələrə aid imicin idarə edilməsi, brendlərin yenilənməsi və tətbiqi, dizayn, korporativ kommunikasiya və s. kimi məqamlar haqqında xəbərlərin yerləşdirildiyi qlobal nəşr kimi fəaliyyət göstərir. Jurnalın hər il London, Dubay, Nyu-York və Honq Konqda mükafatlandırma mərasimi təşkil olunur.

# Tünzalə Ağayeva II Avropa Oyunlarının ulduz elçisidir

Belarus Respublikasının Azərbaycandakı Səfirliyində tanınmış müğənni və bəstəkar, Əməkdar artist Tünzalə Ağayevaya Minskdə keçiriləcək II Avropa Oyunlarının ulduz elçisi sertifikatının təqdimatı mərasimi keçirilib.

Səfir Gennadi Axramoviç müğənninin ölkənin həm yaradıcılıq, həm də idman sahələrində xidmətlərini yüksək qiymətləndirib. Diqqətə çatdırıb ki, "2019-cu il II Avropa Oyunlarının ulduz elçiləri" layihəsi bu tədbirin təbliğinə, Belarus sakinlərinin və beynəlxalq ictimaiyyətin dünya idmanı üçün bu cür əhəmiyyətli hadisəyə marağının artırılmasına yönəldilib. Səfir Minskdə keçiriləcək Avropa Oyunlarına hazırlıq işlərindən də danışıb.

Göstərilən diqqətə görə minnətdarlıq edən Tünzalə Ağayeva Belarus xalqına II Avropa Oyunlarının keçirilməsində uğurlar diləyib. O deyib: "Üzərimə bu cür fəxri missiya qoyulması mənim üçün böyük şərəfdir və eyni zamanda yüksək məsuliyyətdir. Göstərilən etimadı doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm".



Azərbaycan Milli Olimpiya Komitəsi baş katibinin müavini, Ağır Atletika Federasiyasının vitse-prezidenti Azər Əliyev vurğulayıb ki, Tünzalə Ağayeva Bakıda keçirilmiş I Avropa və IV İslam Həmrəyliyi oyunlarında uğurlar diləyib. O, müğənniyə fəaliyyətində uğurlar diləyib.

Sonda Gennadi Axramoviç ulduz elçisi sertifikatını Tünzalə Ağayevaya təqdim edib.

# Misirdə beynəlxalq mədəniyyətlər sərgisində ölkəmiz də təmsil olunub

Dünyanın ən qədim və böyük təhsil ocaqlarından olan Misirin Əl-Əzhər Universitetinin təşkil etdiyi mədəniyyətlər sərgisində ölkəmizi "Vətənpərvər" azərbaycanlı diaspor birliyi təmsil edib.

100-dən çox ölkənin nümayəndələrinin qatıldığı tədbirdə Azərbaycanın milli geyimi, ənənəvi mətbəxi və ölkəmiz haqqında kitab və jurnallar nümayiş olunub.

Azərbaycan guşəsinin təşkilinin təşəbbüskarı Rahidə Nəsirli yerli kütləvi informasiya vasitələrinə ölkəmizlə bağlı məlumat verib. Milli geyim və ləziz şirniyyatımız ziyarətçilərdə böyük maraq doğurub.

Azərbaycanlı diaspor birliyinin sədri, tədqiqatçı-alim Seymur Nəsirov son illərdə ölkəmizi təbliğ etmək məqsədilə mütəmadi şəkildə bu cür tədbirlərin təşkil olunduğunu qeyd edib.

# Da Vinçinin "gen ağacı" araşdırılır

ABŞ-da dünya şöhrətli rəssam Leonardo da Vinçiyə aid olduğu ehtimal edilən saçın DNT analizi aparılacaq.

Bu barədə araşdırmanı aparan iki italyan eksperti məlumat yayıb. Bildirilib ki, aşkar olunan saçın yaxın vaxtlarda DNT analizi aparılması üçün aidiyyəti üzrə təhvil veriləcək.

Mütəxəssislər tapıntını dahi rəssamın ölümünün 500-cü ildönümü günü mayın 2-də, Florensiya yaxınlığındakı Vinçi şəhərində mətbuat konfransında ictimaiyyətə təqdim ediblər.

Bildirilib ki, bu tapıntı uzun müddət ABŞ-da kolleksiyada gizli saxlanılıb. Aşkar edilən saç dəstəsi ilk dəfə rəssamın qədim fransız mənşəli olduğunu təsdiq edən sənədlərlə birgə nümayiş olunub.



# "Nar bağı"nın aktrisası Kazan festivalında təltif edilib

Rusiyanın Tatarıstan Respublikasının paytaxtı Kazanda keçirilən XV Beynəlxalq Müsəlman Kinosu Festivalında ölkəmiz rejissor İlqar Nəcəfin "Nar bağı" filmi ilə təmsil olunub. Aktrisa İlahə Həsənova filmdəki Sara roluna görə "Tammetrajlı bədii filmin ən yaxşı aktrisası" mükafatına layiq görülüb.




Festivalın Qran-pri mükafatı Qırğızıstan, Qazaxıstan və Rusiya kinematoqrafçılarının "Ağac mahnısı" filminə təqdim edilib. "Ən yaxşı rejissor" nominasiyasında Türkiyə təmsilçisi Semih Kaplanoğlu ("Toxum" filmi) təltif olunub. Tatarıstan Prezidenti adından "Kino sənətində humanizmə görə" mükafatı isə İran rejissoru Azadə Musaviyə verilib.

# Özbəkistan televiziyasında ölkəmizlə bağlı növbəti veriliş

Özbəkistanın "Dunyo Boylab" telekanalında Azərbaycanın İsmayıllı, Qəbələ, Şəki şəhərləri və buradakı qədim abidələr haqqında veriliş yayımlanıb.

Veriliş Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü ilə bu ölkə jurnalistlərinin Azərbaycana təşkil etdiyi mediatur çərçivəsində hazırlanıb.

Jurnalist Gulsara Soatxovanın müəllifi olduğu verilişdə İsmayıllı rayonunun ərazisi, əhalisi, gəzməli yerləri, tarixi abidələri haqqında geniş məlumat verilir.

Verilişdə qədim Qəbələ haqqında da söhbət açılıb. Bildirilib ki, Qəbələ eramızın ilk illərində Qafqaz Albaniyasının paytaxtı olub.

Jurnalist verilişdə Şəki şəhərindəki XVII əsrdə tikilən Yuxarı karvansara, unikal memarlıq abidəsi olan Şəki Xan sarayı, şəhərin yaxınlığında yerləşən Kiş kəndi, oradakı eramızın I əsrinə aid olan ibadətxana haqqında ətraflı məlumat verib.

# İstanbulda XI Beynəlxalq Sənədli Film Günləri başa çatıb

Türkiyə Radio və Televiziya Qurumunun (TRT) həvəskar və peşəkar kinoşünasları dəstəkləmək üçün təşkil etdiyi XI Beynəlxalq Sənədli Film Günləri başa çatıb.



İstanbulda Camal Rəşid Rey konsert salonunda keçirilən mərasimdə fərqli kateqoriyalarda mükafatlar qaliblərə təqdim edilib.

Festivalın milli bölməsində "Ən yaxşı film" mükafatını "Kimsəsizlər hoteli" adlı film ilə Rıdvan Karaman qazanıb.

Beynəlxalq kateqoriyada isə Alessandro Cassigoli və Casey Kaufman "Kəpənək" adlı sənədli filmlə "Ən yaxşı film" mükafatına, Joost Vandebrug "Bruce Lee və quldur" ekran əsərinə görə Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin mükafatına, Chirst Martin ("Son anda") və Luke Lorentzen ("Gecə yarısı ailəsi") üçüncü mükafata layiq görülüb.

"Milli tələbə filmləri" kateqoriyasında "Ən yaxşı film" mükafatını isə "Uçan adam" adlı filmlə Uğur Ərsöz və Nusrət Oğuzhan Yıldız qazanıb. Beynəlxalq, milli peşəkar və tələbə filmləri kateqoriyaları ilə yanaşı bu il hələ fikir mərhələsində olan, reallaşmamış layihələrdən üçünə xüsusi dəstək mükafatı verilib.

TRT həvəskar və peşəkar kinoşünasları dəstəkləmək məqsədilə 2009-cu ildən bu festival-müsabiqəni təşkil edir. XI Beynəlxalq Sənədli Film Günlərində iştirak üçün 101 ölkədən 1605 film üçün müraciət olmuşdu. Onların arasından seçilən 80 sənədli film festival müddətində 6 fərqli zalda nümayiş olunub.

**Mehparə SULTANOVA**
**Ankara**

"Mədəniyyət" qəzetinin kollektivi qəzetin baş redaktoru Vüqar Əliyevə əmisi

**Əliyev Rəfayil Surxay oğlunun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri**

# MƏDƏNİYYƏT

**Qəzet 1991-ci ilin yanvarından çıxır**

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 530-34-38 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5245
**Sifariş:** 1517
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.